

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 10 - oktyabr 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 10 - oktyabr 2019**

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**



BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


"Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası ....4
MDB Dövlət Başçıları Şurasının iclası ....7
Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü ....10
Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü ....12
Prezident İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib ....16




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib ....18
"Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans....21
Azərbaycan Vəkilliyinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda ədliyyə naziri Fikrət Məmmədovun çıxışı ....23
Hüquq-mühafizə orqanlarının gənc əməkdaşlarının birinci Forumu ....24
Avropa ədliyyə nazirlərinin konfransı keçirilib ....27
Rəqəmsal dövrdə hüquqa və ədalət mühakiməsinə əlçatanlıq (Konfransda ədliyyə naziri Fikrət Məmmədovun çıxışı) ....29
Azərbaycan Avropa Şurasının daha bir müqaviləsinə imza atıb ....31
Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir ....33
Ədliyyə naziri və nazir müavinləri regionlarda vətəndaşları qəbul ediblər ....33
Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib ....35

Azərbaycan və Türkiyə hüquqi sahədə səmərəli əməkdaşlıq edir....36
Ədliyyə Nazirliyində görüş....37
MSK-da dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib....38
Vətəndaşların seçki hüquqlarının reallaşmasında ədliyyə orqanlarının rolu (Müşavirədə ədliyyə nazirinin müavini Azər Cəfərovun çıxışı)....39
Ədliyyə Nazirliyində "dəyirmi masa" keçirilib....42
Ədliyyə Nazirliyində Nəsimi yaradıcılığına həsr olunmuş ədəbi-bədii tədbir keçirilib....45
"Avropa Ədliyyə Günü" münasibətilə məhkəmələrdə "açıq qapı" keçirilir....46
İctimai Komitənin üzvləri Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşüblər....47
Azərbaycan notariatı xarici həmkarların diqqət mərkəzindədir....48
Ədliyyə Nazirliyi gənclər arasında ailə dəyərlərinə dair maarifləndirici tədbir keçirib....49
Ədliyyə Nazirliyində vətəndaş cəmiyyəti üçün təlim keçirilib....50
Sahibkarlara əmlakın qeydiyyatına dair təqdimat keçirilib....50
Yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir....51
Strasburqda məhkumların sosial reinteqrasiyasına və probasiya sahəsində əməkdaşlığa dair çoxtərəfli görüş keçirilib....52
Ədliyyə Akademiyasında....53
Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində....55

## MƏQALƏ

Aygün Hüseynova. Bələdiyyələrdə kargüzarlıq işinin təşkili....58

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı....61

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1847 Tiraj:1100 ədəd

# "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası

## *Prezident İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-4-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçidə işgüzar səfərdə olub.**

Oktyabrın 3-də Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib. Prezident İlham Əliyev sessiyada iştirak edib.

"Valday" Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Veliki Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Elə klub adını da buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilən klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işində 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak edib. Digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar.

Sessiyada əvvəlcə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış edib. Rusiyanın dövlət başçısı dünyanın ən iri və əhalisi sıx olan qitəsi kimi Asiyanın dünya məsələlərində rolundan, ölkəsi ilə Asiya dövlətlərinin münasibətlərinin əhəmiyyətindən bəhs edib, qloballaşmanın, texnoloji inqilabın bəhrələrindən, mənfəətlərindən müdrikliklə istifadə edən və iqtisadi liderlər sırasına daxil olan Asiya dövlətlərinin dünya siyasətində daha mühüm rol oynadığını qeyd edib, dünya nizamının önəmini vurğulayıb.




Prezident Vladimir Putin bildirib ki, ən mürəkkəb münaqişə düyünlərini qarşılıqlı əməkdaşlıq, hörmət, tərəflərin maraqlarını tanımaq, müxtəlif qəbildən olan blok fəlsəfəsindən imtina etmək prinsipləri əsasında həll etmək lazımdır və mümkündür. Rusiya Prezidenti gələcəyə istiqamətlənmiş bərabərhüquqlu siyasi münasibətlərin, o cümlədən Asiya ölkələri arasında münasibətlərin əsasının hamının davamlı və uzunmüddətli inkişafı üçün real perspektivlər açan iqtisadi tərəfdaşlıq olduğunu diqqətə çatdıraraq nəqliyyat sahəsində qarşılıqlı əlaqələri nümunə göstərib.

Rusiyanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğunu deyən Prezident Vladimir Putin beynəlxalq hüquqa qeyd-şərtsiz əməl olunmasının, qarşılıqlı




etimadın və ehtiramın möhkəmləndirilməsinin tərəfdarı olduğunu, Rusiyanın dövlətlərarası münasibətləri və ünsiyyəti BMT Nizamnaməsinin müddəalarına əsaslanaraq, ədalətli, demokratik prinsiplər üzrə qurduğunu bəyan edib. Qeyd edib ki, Rusiya diqqətini təhlükəsizliyin və sabitliyin möhkəmlənməsi, beynəlxalq terrorizmə, digər çağırış və təhdidlərə qarşı mübarizə üzərində cəmləşdirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib. Dövlətimizin başçısı "Valday" Diskussiya Klubunun müasir dünyanın aktual məsələlərinin müzakirə edildiyi və əməkdaşlığın dərinləşməsi üçün tövsiyələr verilən ən mühüm beynəlxalq məkanlardan birinə çevrildiyini vurğulayıb, Rusiyanın çox ağır sınaqlardan şərəflə çıxmasında Vladimir Putinin rolunu, onun cəsarəti, qətiyyəti, müdrikliyi, vətənpərvərliyi sayəsində Rusiyanın bu gün dünyanın aparıcı böyük dövləti olduğunu qeyd edib.

Ölkələrimiz arasında münasibətlərin strateji əhəmiyyət kəsb etdiyini deyən Prezident İlham Əliyev ticari-iqtisadi, hərbi-texniki, nəqliyyat, turizm və təhsil sahələrində uğurlu əməkdaşlıqdan bəhs edib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə toxunub.

Bildirib ki, Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu 25 ildən çoxdur erməni işğalı altındadır. Münaqişə nəticəsində əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, etnik təmizləmə aparılıb. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, iyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır.

Dövlətimizin başçısı Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunaraq diqqətə çatdırıb ki, "bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır.




Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

"İşğala, 1990-cı illərin əvvəlində ölkəmizdə hər səkkiz nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və quruculuq yolu qət edib", - deyən Prezident İlham Əliyev 26 ildir ki, Azərbaycan xalqının sabitlik və inkişaf şəraitində yaşadığını, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndiyini vurğulayıb, respublikamızın iqtisadi inkişafının diqqətdə saxlanıldığını bildirib.

Sessiyada çıxış edən İordaniya Kralı II Abdulla, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Filippin Prezidenti Rodriqo Roa Duterte "Valday" Beynəlxalq Klubunun əhəmiyyətinə toxunub, Asiya regionunun dünyada artan rolundan, terrorizmin doğurduğu təhdidlərdən, dünyada gedən qlobal siyasi və iqtisadi proseslərdən bəhs ediblər.

Sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırıblar.

Səfər çərçivəsində dövlətimizin başçısı, həmçinin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibə verib.

Eyni zamanda Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi, ticari-iqtisadi əlaqələrin möhkəmləndiyi qeyd olunub, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanıb. Həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, iqtisadi, investisiya qoyuluşu, hərbi və hərbi-texniki, kənd təsərrüfatı, turizm və humanitar sahələrində əməkdaşlıq barədə müzakirələr aparılıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra dövlət başçıları təkbətək söhbət ediblər.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri başa çatıb.

# MDB Dövlət Başçıları Şurasının iclası

## Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfəri

**Oktyabrın 10-11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistanda işgüzar səfərdə olub.**

Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. İclası Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov açaraq onun işinə uğurlar arzulayıb. MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verib.




İclasda çıxış edən Prezident İlham Əliyev Türkmənistan ilə Azərbaycan arasında sıx münasibətləri qeyd edib, Zirvə Görüşünün gündəliyində olan Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciəti barədə danışıb. Bildirib ki, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü.

Dövlətimizin başçısı, həmçinin hərbi kinoxronikada məşhur kadrlardan nümunə gətirib, Azərbaycan elminin nümayəndələrinin ümumi qələbəmizə sanballı töhfələrindən bəhs edib, müharibədə həlak olanların xatirəsinin Azərbaycanda ehtiramla yad edildiyini, müharibə veteranlarına böyük qayğı göstərildiyini vurğulayaraq ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdandan sonra ilk qərarlarından birinin 9 May - Qələbə Gününün bərpa edilməsi ilə bağlı olduğunu qeyd edib.

Ölkə başçılarının faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etdiyini söyləyən Prezident İlham Əliyev MDB məkanında, xüsusən Ermənistanda belə halların baş verdiyini, əvvəlki hakimiyyətin Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyduğunu vurğulayıb, MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupunun Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirmələrinə baxmayaraq



sitatlara istinad edərək Böyük Vətən müharibəsi illərində Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edən, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında, həmçinin Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edən, 1942-ci ildə Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edən Njdenə 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində qoyulmuş hündürlüyü 6 metrə yaxın olan heykəlin hələ də götürülmədiyini diqqətə çatdırıb. Bildirib ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur.

Sonra Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidentinin çıxışında səslənən əsaslı arqumentlərə cavab verməyə uğursuz cəhd edərək Qaregin Njdenin Ermənistanın türk işğalına və türklərin təşkil etdikləri ermənilərin soyqırımına qarşı mübarizə aparması kimi qələmə verib, Azərbaycan Prezidentinin sözlərini yersiz olaraq erməni xalqına hörmətsizlik kimi hesab edib və tarixi



faktların guya təhrif edilməklə iclasın ab-havasına hansısa gərginlik gətirilməsi üçün istifadə olunduğunu bildirib.

Nikol Paşinyanın çıxışından sonra növbəti çıxış etməli olan Belarus Prezidenti Aleksandr Lukaşenkodan dövlətimizin başçısı icazə alaraq Ermənistanın baş nazirinin çıxışında səslənən sözlərə tutarlı faktlarla cavab verib. Çıxışında söhbətin erməni xalqından getmədiyini, Sovet İttifaqının digər xalqları kimi, ümumi qələbəmizə böyük töhfə verən erməni xalqının, ilk növbədə, əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməli olduğunu vurğulayan Prezident İlham Əliyev Njdenin necə bir "xadim" olduğunu, onun Böyük Vətən müharibəsi illərində dediyi, nə qədər iyrənc olsa da, sitatını bir daha təkrarlayıb: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Dövlətimizin başçısı bir daha diqqətə çatdırıb ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir.

Sonra digər dövlət başçıları çıxış ediblər.

Oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəm-




mədov MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevə Türkmənistanın "Bitərəflik" ordenini, Azərbaycanın Rusiyadakı səfiri, MDB-yə üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlu isə Fondun "Humanitar əməkdaşlığın inkişafında xidmətlərinə görə" medalını Türkmənistan Prezidentinə təqdim edib.

İclasda bir sıra sənədlər, o cümlədən "Strateji iqtisadi əməkdaşlıq haqqında" bəyannamə imzalanıb.

Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub. Dövlətimizin başçısı qəbulda iştirak edib.

Səfər çərçivəsində Aşqabadda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun görüşü olub. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafından



məmnunluq ifadə olunub, MDB dövlət başçılarının Zirvə Görüşünün çoxtərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb etdiyi, hazırkı səfərin xalqlarımızın rifahı naminə tərəfdaşlığın səmərəliliyini artırmaq üçün yaxşı imkan yaratdığı bildirilib.

Eyni zamanda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüş keçirilib. Görüşdə ikitərəfli münasibətlərimizin genişləndirilməsi, bütün istiqamətlər üzrə işlərin yaxşı getdiyi vurğulanıb, sıx qarşılıqlı fəaliyyətin davam edəcəyi, fəal əməkdaşlıq edə biləcək sahələrin çox olduğu bildirib, Hökumətlərarası Komissiyanın işinin təşkili qeyd olunub. Vurğulanıb ki, ölkələrimiz arasında dostluq münasibətləri həm ticari-iqtisadi sahədə, həm investisiya sferasında və bütün başqa sahələrdə qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün yaxşı bazadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 11-də Türkmənistana işgüzar səfəri başa çatıb.




# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü

**Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib.**

Əvvəlcə dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov, Qazaxıstanın birinci Prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Macarıstanın Baş Naziri Viktor Orban və digər yüksək səviyyəli şəxslər iştirak ediblər.

Zirvə Görüşünü açan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət və hökumət başçılarını salamlayıb.

Sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının hazırkı sədri qismində Qırğız Respublikasının Prezidenti Sooronbay Şərifoviç Jeenbekov çıxış edərək görüşün yüksək səviyyədə təşkil edilməsinə görə dövlətimizin başçısına təşəkkürünü bildirib, bu il yaradılmasının 10 illiyi tamam olan təşkilatın fəaliyyəti dövründə ölkələrimiz arasında qarşılıqlı dostluq münasibətlərinin möhkəmlənməsi üçün atılan mühüm addımlardan, həyata keçirilən tədbirlərdən və uğurlardan bəhs edib. O, çıxışında təşkilata sədrliyin Azərbaycan Respublikasına keçdiyini qeyd edərək ölkəmizin sədrliyi ilə iqtisadiyyatın, ticarətin, investisiyaların və digər sahələrin inkişafı üzrə əməkdaşlığın daha da güclənəcəyinə inandığını söyləyib.




Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək ölkəmizin sədrlik dövründə dövlətlərimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəyini bildirib, ötən on il ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının bir təşkilat kimi əhəmiyyətli inkişaf yolu keçdiyini, ölkələrimiz arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya

texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafında mühüm rol oynadığını və mötəbər beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndiyini vurğulayıb.

Builki tədbirimizin "Kiçik və orta sahibkarlığın inkişafı" adlanan mövzusunun mühüm aktuallıq kəsb etdiyini qeyd edən dövlətimizin başçısı son 16 ildə Azərbaycanın sosial-iqtisadi inkişafından, nəqliyyat, enerji, turizm, təhlükəsizlik sahələrində səmərəli əməkdaşlıqdan bəhs edib, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın destruktiv siyasətini, 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini diqqətə çatdırıb.

Sonra Prezident İlham Əliyev Türk Şurasının təsis etdiyi Türk Dünyasının Ali Ordenini Nursultan Nazarbayevə təqdim edib.

Qazaxıstanın birinci Prezidenti və Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev görüşdə çıxış edib.

Görüşdə həmçinin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Macarıstanın Baş Naziri Viktor Orban, Türkmənistanın Baş Nazirinin müavini Purli Aqamuradov, Türk Şurasının Baş katibi Bağdad Amreyev çıxış ediblər.

Tədbirdə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə növbəti görüşün Türkiyədə keçiriləcəyini elan edib. Sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün sənədləri imzalanıb.

Sonra Prezident İlham Əliyevin adından Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib, konsert proqramı olub.

Tədbir çərçivəsində dövlətimizin başçısının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Prezidenti Sooronbay Jeenbekov, Macarıstanın Baş Naziri Viktor Orban, Qazaxıstanın birinci Prezidenti-elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayev ilə görüşləri olub.

Görüşlərdə ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığın perspektivləri müzakirə olunub.

Həmçinin, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşünün ölkələrarası əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi vurğulanıb.



# Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü

**Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib.**

"Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.







Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə iştirak edən Belarus parlamenti Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonu, Sudanın Prezidenti Abdul-Fattah Al-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qellehi, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiyanın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşılayıb.

Dövlət və hökumət başçıları



birgə foto çəkdiriblər.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşünü açaraq təşkilata üzv bəzi ölkələrin dünyasını dəyişən keçmiş dövlət və hökumət başçılarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif edib.

Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür edib. Maduro Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini söyləyib və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan edib.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verilib.

Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söyləyib.

Dövlətimizin başçısı bəşəri dəyərlərin təbliğinə xidmət edən Qoşulmama Hərəkatının bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirdiyini, özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olduğunu bildirib, Azərbaycanın 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunduğunu və qısa müddət ərzində ölkəmizin beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazandığını vurğulayıb.

Qeyd edib ki, Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür.

Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracağını bəyan edən Prezident İlham Əliyev bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsiplərinin Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşdüyünü söyləyib.

Dövlətimizin başçısı çıxışında Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsindən, Azərbaycanın 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərməsindən ölkəmizdə prioritet sahə kimi müəyyən edilmiş gənclər siyasətindən bəhs edib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımını diqqətə çatdırıb, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin 26 ildir ki, icrasız qaldığını vurğulayıb.

Prezident İlham Əliyev həm-



çinin, müstəqilliyimiz dövründə 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoyduğunu, ölkədə sabitlik və əmin-amanlığın bərqərar olunduğunu söyləyib, son illər respublikamızın hərtərəfli sürətlə inkişafından bəhs edib.

Sonra Zirvə Görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam edib, tədbirin gündəliyi qəbul olunub, Büro üzvləri seçilib, xüsusi qonaq olan dövlətlərin və təşkilatların siyahısı təsdiqlənib.

Daha sonra BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış edib. BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlo çıxış edib və Baş katib Antonio Quterreşin müraciətini oxuyub.

Zirvə Görüşü "77-lər qrupu" təşkilatının sədri Riyad Mənsurun və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışları ilə davam edib.

Çıxışlarda Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğu bildirilib, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulanıb.

Sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının sessiyasını bağlı elan edib.

Fasilədən sonra Prezident İlham Əliyevin sədrliyi ilə davam edən Zirvə Görüşündə Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamad, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelleh, Prezident Vladimir Putinin Zirvə Görüşünə ünvanladığı müraciəti səsləndirən Rusiyanın Xarici İşlər nazirinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogo, Sudan Prezidenti Abdul-Fattah Al-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş Naziri xanım Şeyx Hasina, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış ediblər.

Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edən natiqlər Qoşulmama Hərəkatının qarşısında mühüm vəzifələrin durduğunu deyərək dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıblar.

Çıxışlarda terrorçuluqla mübarizə, münaqişələrin həlli ilə bağlı beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi, beynəlxalq hüquq və öhdəliklərin yerinə yetirilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, qaçqınlar problemi, yoxsulluğun azaldılması, ətraf mü-

hitin qorunması, üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı fikirlər diqqətə çatdırılıb. Çıxış edənlər mövcud problemlərin həllində Qoşulmama Hərəkatının kifayət qədər güclü mövqelərə malik olduğunu deyərək 60 il bundan qabaq qəbul olunan Bandunq prinsiplərinin bu gün də aktual olması fikrində həmrəylik nümayiş etdiriblər.

Qeyd edək ki, Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan Qoşulmama Hərəkatı özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib.

Azərbaycan Respublikası 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlif səviyyəli iclas və konfranslarında iştirak etmək və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla onun məqsəd və prinsiplərinə öz töhfəsini verir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. Hərəkata üzvlük, həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunması və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıb.

Oktyabrın 26-da Bakı Zirvə Görüşü başa çatıb və yekun sənədlər imzalanıb.

Beləliklə, Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək.

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü işini ümumi debatlarla davam etdirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçən debatlarda Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir Bin Mohamad, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelleh, Rusiya Xarici İşlər nazi-



rinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogo, Sudan Prezidenti Abdul-Fattah Al-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaiah Naidu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş Naziri xanım Şeyx Hasinam, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış ediblər.

Çıxışlarda 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində göstərilən səylərin artırılmasının, iqlim dəyişikliyi, miqrasiya, qaçqın və köçkün problemlərinin qarşısının alınmasının, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının, transmilli cinayətkarlığa qarşı mübarizənin, kütləvi qırğın silahların yayılmasının qarşısının alınmasının, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin önəmi vurğulanıb, Qoşulmama Hərəkatına üzv dövlətlərin bu sahədə birgə əməkdaşlığının vacibliyi diqqətə çatdırılıb.

Natiqlər XVIII Zirvə Görüşünü yüksək səviyyədə təşkil etdiyinə və nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan hökumətinə və xalqına minnətdarlıqlarını bildiriblər.

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyafətdə iştirak ediblər. Dövlətimizin başçısı rəsmi ziyafətdə çıxış edib.

Zirvə Görüşü çərçivəsində ölkəmizin başçısının, həmçinin İran, Pakistan, Türkmənistan, Venesuela, Kuba, Cibuti, Əfqanıstan, Esvatini, Bosniya və Herseqovina, Vyetnam, Sudan, Əlcəzair, Malayziya, Banqladeş, Liviya, Koreya, Omanın dövlət və hökumət başçıları və digər yüksək səviyyəli rəsmiləri, BMT Baş Assambleyasının prezidenti, Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini ilə ikitərəfli görüşü olub, əməkdaşlığa dair faydalı danışıqlar aparılıb.

# Prezident İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib

**Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. Dövlətimizin başçısı bu ilin doqquz ayının sosial-iqtisadi göstəricilərindən, iqtisadi artımın təmin olunmasından danışıb.**

Bildirib ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər. Kənd təsərrüfatı doqquz ayda 7 faizdən çox artıb. İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Bu il çox ciddi və böyük sosial paket reallaşıb - 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşıb, pensiyalar, əməkhaqları, müavinətlər artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir.

Bu sahədə fəaliyyətin beynəlxalq aparıcı maliyyə qurumları tərəfindən yüksək qiymətləndirildiyini deyən dövlətimizin başçısı hökumətin, yəni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycanın dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsinə görə 5-ci yerdə olduğunu vurğulayıb. Eyni zamanda əhalinin mütləq əksəriyyətinin Azərbaycan rəhbərliyini, aparılan siyasəti birmənalı şəkildə dəstəklədiyini qeyd edib.

Prezident İlham Əliyev bununla belə daha yüksək artıma



nail olmaq üçün kifayət qədər imkanların olduğunu bəyan edib. İclasda dövlət başçısının qaldırdığı aktual məsələlərdən biri də neqativ hallarla bağlı olub. Bildirib ki, vergi və gömrük sahələrində aparılan islahatlar, şəffaflıqla bağlı addımlar öz səmərəsini verməkdədir. Gömrük və vergi orqanları doqquz ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil ediblər. Lakin bu gün də hələ bir çox şirkətlər vergiləri tam ödəmirlər və ikili mühasibat saxlayır. Vergi orqanları, digər hüquq-mühafizə orqanları bu tipli dırnaqarası sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidirlər. Vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir.

Eyni zamanda diqqətə çatdırıb ki, bütün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, büdcə xərclərimiz məqsədyönlü və şəffaf olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. İctimai nəzarət daha da güclü olmalıdır. Vətəndaşlar ictimai nəzarət baxımından daha da fəal olmalıdırlar ki, biz islahatları aparaq və ölkəmizin qüdrətini artıraq.

Dövlətimizin başçısı əsas vəzifənin iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirmək olduğunu vurğulayaraq bu gün iqtidarda olan bəzilərinin islahatlara qarşı çıxmalarını sərt tənqid edib: "Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik".

Ölkə rəhbəri gələn ilin dövlət büdcəsinin hazırlanması prosesində sərt tələblər də qoyub. Dövlət orqanları büdcə xərclərinin müəyyən edilməsi zamanı şişirdilmiş deyil, real rəqəmlər verməli, hər bir istiqamət üzrə xərci əsaslandırmalı, şişirdilmiş rəqəm verənlər cəzalandırılmalıdır.

Sonra müzakirələrdə Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Azərbaycan Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Şahin Mustafayev, Vergilər naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov çıxış ediblər.

Prezident İlham Əliyev müzakirələr zamanı iqtisadi artımın birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlı olduğunu bildirərək, iqtisadiyyatın real sektorunun artımında, qeyri-neft sektorunun maliyyələşməsində bankların fəal iştirakı vəzifəsini qoyub, bütövlükdə hökumət qarşısında konkret və mühüm vəzifələr müəyyənləşdirib.

# Ədliyyə Nazirliyinin Kollegiya iclası keçirilib



**Oktyabrın 31-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş nazirliyin kollegiya iclasında dövlət başçısının iqtisadi müşavirədə verdiyi tapşırıqlarla bağlı ədliyyə orqanlarının vəzifələri müzakirə olunub.**

Çıxış edən nazir ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisini, beynəlxalq hesabatlarda ölkə rəhbərliyinin dünyada islahatlara meyllilik səviyyəsinə görə öncül olduğunu və bütün sahələrdə əldə etdiyi yüksək nailiyyətləri vurğulayıb, şəffaflığın təmin olunması, iqtisadiyyatın inkişafına mane olan halların aradan qaldırılması, habelə bank sektorunun iqtisadi artımın maliyyələşdirilməsində fəal iştirakı ilə bağlı dövlət başçısının tapşırıqlarını diqqətə çatdırıb.

Bildirilib ki, həmin tapşırıqlardan irəli gələn vəzifələrə dair Azərbaycan Banklar Assosiasiyasının və bank sektorunun rəhbər şəxsləri ilə nazirlikdə "dəyirmi masa" keçirilərək bankların fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı tədbirlər barədə məlumat verilib, bankların hüquqlarının məhkəmə müdafiəsi və icra sahələrində problemlər müzakirə olunaraq birgə işçi qrupları yaradılıb. İclasda işçi qrupların fəaliyyəti ilə bağlı məlumatlar dinlənilərək qaldırılan məsələlərin çevik həlli üzrə konkret tapşırıqlar verilib.

Kollegiyada dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən işlərin nəticələri müzakirə olunub. Qeyd edilib ki, Fərmanda məhkəmə sisteminin qarşısında duran bütün məsələlər, o cümlədən sahibkarlığın inkişafına və bank sektorunun fəaliyyətinin səmərəliliyinə xidmət edən, onların məhkəmə mübahisələrinin operativ həlli ilə bağlı tədbirlər əhatə olunub.

Fərmanın icrası çərçivəsində nazirlik tərəfindən ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən 40-dək normativ aktın layihələri işlənib hazırlanıb, o cümlədən sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələrin yaradılması ilə bağlı yeni qanun qəbul olunaraq kommersiya və həmçinin inzibati məhkəmələr təsis edilib.

Həmçinin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında hakimlərin ixtisaslaşmasına mühüm əhəmiyyət verilərək onların konkret sahələr üzrə mütəmadi ən aktual, o cümlədən iqtisadi və maliyyə məsələlərinə, qanunvericilikdəki yeniliklərə və digər mövzulara dair tədris tədbirlərinə cəlb olunması təmin edilir.

Bundan əlavə, hakimlərin iş yükünün azaldılmasına xidmət edən məqsədyönlü tədbirlər görülüb, o cümlədən məhkəmə baxışının tezliyinin təmin olunması məqsədilə kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat proseduru təsbit olunub, iqtisadi mübahisələr üzrə icraatın yalnız elektron qaydada - "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması, habelə həmin işlər üzrə məhkəmə proseslərinin fasiləsiz audio-video yazılışı təmin edilib, mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlərin məhkəmədən kənar, elektron qaydada notariusun icra qeydi ilə asan həlli imkanı yaradılıb, icra icraatı üzrə xitam və dayandırma səlahiyyətləri icra məmurlarına verilib.

Eyni zamanda, iclasda mübahisələrin məhkəmədən kənar həlli vasitələrinin genişləndirilməsi məqsədilə mediasiya institutunun ölkəmizdə səmərəli tətbiqi, bu sahədə Avropa İttifaqı ilə birgə yeni layihənin təşviqi qeyd olunub, növbəti ildən tətbiq ediləcək "Mediasiya haqqında" Qanunun implementasiyası ilə əlaqədar nazirlik tərəfindən çoxsaylı normativ sənəd layihələrinin hazırlanaraq qəbul olunduğu vurğulanıb, Mediasiya Şurasının yaradılması, mediasiya üzrə təlimçilərin, mediatorların hazırlanması, hakimlərin bu sahədə təlimatlandırılması, əhatəli maarifləndirmə tədbirlərinin təşkil olunması və s. ilə bağlı işlər diqqətə çatdırılıb.

Həmçinin, dövlət başçısının Fərmanının icrası çərçivəsində ölkəmizdə beynəlxalq arbitraj prosedurlarının təşviqi üzrə tədbirlər görülüb, o cümlədən Avropa İttifaqı ilə birgə "Biznes mühitinin inkişafı ilə əlaqədar normativ-hüquqi bazanın dəstəklənməsi" layihəsi çərçivəsində yerli və beynəlxalq qanunvericilik təhlil olunub, beynəlxalq təcrübə öyrənilib və arbitraj prosedurlarının təşviqinə dair yol xəritəsi hazırlanıb.

İclasda hakimlərin iş yükünün azaldılması və məhkəmə fəaliyyətinin keyfiyyətinin artırılması məqsədilə Fərmanla hakimlərin ştat sayının 200 vahid artırılmasının mühüm əhəmiyyəti vurğulanıb. Yeni daha çevik qaydada seçimlərə başlanılaraq bir qrup hakimliyə namizədlərlə test üsulu ilə və yazılı imtahanların keçirildiyi, sənəd qəbulunun davamlı xarakter aldığı diqqətə çatdırılıb.

Bununla yanaşı, kollegiyada məhkəmələrdə süründürməçilik və digər mənfi hallara qarşı hər zaman qəti tədbirlərin görüldüyü bildirilərək Məhkəmə-Hüquq Şurası tərəfindən fəaliyyət göstərdiyi 15 il ərzində 200 hakim barəsində intizam icraatının başlanıldığı, 130 hakimin qanunvericiliklə nəzərdə tutulmuş müxtəlif əsaslarla - fəaliyyətinin qeyri-məqbul qiymətləndirilməsinə, səlahiyyət müddətinin uzadılmamasına görə, habelə intizam qaydasında, o cümlədən korrupsiyaya şərait yaradan hüquqpozmalara yol verdiklərinə görə məhkəmə sistemindən kənarlaşdırıldığı vurğulanıb. Məlumat verilib ki, şəffaflığın və qərəzsizliyin, habelə qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmələrdə mütəmadi yoxlamalar və monitorinqlər aparılır. Qısa müddət ərzində 40-dan çox məhkəmədə monitorinqlər keçirilib, yol verilən pozuntular 100-dən artıq hakimin və məhkəmə sədrinin diqqətinə çatdırılıb, daha kobud pozuntularla bağlı isə intizam icraatları başlanılıb.

Eyni zamanda Fərmanla

məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının qətiyyətlə alınmasına dair konkret addımların atıldığı qeyd olunaraq icra fəaliyyətini tənzimləyəcək İcra Məcəlləsinin işlənib hazırlandığı, icra xidmətində iş həcminin ilbəil kəskin artması, təkcə bu ilin 9 ayında işlərin sayının 776 mini ötməsi ilə əlaqədar alternativ icra mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı mütərəqqi beynəlxalq təcrübəyə uyğun tədbirlər vurğulanıb.

İclasda həmçinin, cinayətkarlıqla mübarizədə və ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rol oynayan məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər müzakirə olunub, cari ilin 9 ayında Məhkəmə ekspertizası mərkəzinə 41 ekspert ixtisası üzrə 24.000-dək işin icra olunduğu və ekspertlər 675 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99.5 faiz həllinə nail olduğu qeyd edilib.

Diqqətə çatdırılıb ki, Fərmanın icrası çərçivəsində ekspert araşdırmalarının keyfiyyətinin və operativliyinin, iqtisad ekspertizaları sahəsində işin səmərəliliyinin artırılması məqsədilə nazirliyin Məhkəmə Ekspertizası Mərkəzinin strukturu təkmilləşdirilib, ştat sayı artırılıb, ekspertiza fəaliyyətinə əlçatanlığın asanlaşdırılması, yerli məhkəmə və hüquq-mühafizə orqanlarına köməklik məqsədilə Mərkəzin əlavə yeni - Lənkəran regional bölməsi yaradılıb. Həmçinin, ekspertiza fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsinə dair qanunvericilik və qabaqcıl təcrübələr nəzərdən keçirilib, ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, ekspertiza təyin edilməsi ilə bağlı tərəflərin hüquqlarının genişləndirilməsi, həmçinin ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi, bununla bağlı müvafiq lisenziyaların verilməsi və digər mütərəqqi yeniliklərə dair layihələr hazırlanıb.

İclasda Fərmana əsasən ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasına və rəqəmsallaşdırılmasına, işlərə daha operativ və keyfiyyətlə baxılmasına xidmət edən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi və funksionallığının artırılması üzrə görülən işlər qeyd olunub, bu məqsədlə hazırlanmış "Mobil məhkəmə" proqram təminatının təqdimatı keçirilib.

Kollegiyada vurğulanıb ki, Fərmanın icrası üzrə görülən işlər beynəlxalq aləmdə təqdir olunur, o cümlədən Dünya Bankının "Doing Business 2020" hesabatında yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiqi üzrə görülən tədbirlər müsbət nəticələr kimi əks olunub.

Eyni zamanda ədliyyə nazirinin ötən ay Strasburqa səfəri zamanı məhkəmə-hüquq sistemindəki islahatlar, xüsusilə dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı və onun icrası üzrə qısa müddətdə intensiv işlərin görülməsi Avropa Şurasının yüksək rəsmiləri tərəfindən qeyd olunub və Azərbaycanın bu sahədə yaxşı təcrübəsinin Avropa Şurası tərəfindən yayıldığı bildirilib. Avropa ədliyyə nazirlərinin konfransında da məhkəmə-hüquq sahəsində təcrübəmizə maraq göstərilib.

İclasda dövlət başçısının bu mühüm sənəddən irəli gələn ardıcıl tədbirlərin davam etdirilməsi diqqətə çatdırılıb. Bununla yanaşı, ədliyyə orqanları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, korrupsiyanın yolverilməzliyi, etik davranış qaydalarına dönmədən əməl olunması, maliyyə və digər sahələrdə şəffaflığın artırılması ilə bağlı konkret tapşırıqlar verilib.

Sonda bəzi normativ sənəd layihələrinə baxılıb, vətəndaş cəmiyyətinin inkişafına dövlət dəstəyinin təzahürü olaraq 30-dək qeyri-kommersiya təşkilatları dövlət qeydiyyatına alınıb.

# "Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans

**Azərbaycanda vəkilliyin yaradılmasının 100 illiyi münasibətilə oktyabrın 4-də Bakıda Vəkillər Kollegiyasının və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə təşkilatçılığı ilə "Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans keçirilib.**




Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə direktoru Sonya Fonteyn, hüquq layihəsinin rəhbəri Tomas Herrman, Milli Məclisin deputatları, məhkəmələrin sədrləri və hakimləri, prokurorluq və ədliyyə orqanlarının nümayəndələri, 20-dən çox ölkənin Vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurasının, BMT-nin və digər beynəlxalq təşkilatların, habelə dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Vəkillər Kollegiyasının üzvləri, hüquq ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

İki sessiyada keçirilən konfransın məqsədi beynəlxalq ekspertlərin və dünyanın müxtəlif ölkələrinin Vəkillər kollegiyalarının nümayəndələrinin vəkillik peşəsinin idarəetmə və rolu ilə bağlı perspektivlərinin müzakirəsi olub. Tədbirdə müvəkkillərin insan hüquqlarının müdafiəsini həyata keçirərkən vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılıb. Konfrans iştirakçılarının çıxışları əsasən vəkillik peşəsinin təşkili və idarəetməsi, vəkil etikası və vəkillərin peşəyə qəbulu mövzularına həsr edilib.



Prezidentin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri F. Ələsgərov çıxış edərək ölkəmizdə vəkilliyin mürəkkəb inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyamızın vəkilliyin hüquqi bazasının formalaşmasına əsas zəmin yaratdığını vurğulayıb, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin iştirakı ilə hazırlanmış "Vəkillər və vəkillik haqqında" Qanunun hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ daxil olmaqla Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların real təminatı kimi böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq islahatlarının dərinləşməsi, o cümlədən vəkillik təsisatının möhkəmləndirilməsi üzrə vacib addımların atıldığını deyən F. Ələsgərov dövlət başçısının "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il fevralın 22-də imzaladığı Sərəncamının müstəsna əhəmiyyətini qeyd edib, Kollegiya rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində ötən dövrdə ölkədə vəkillərin sayının artırıldığını və bu prosesin davam etdiyini vurğulayıb.

Ədliyyə naziri Fikrət Məmmədov konfransda çıxış edib *(Çıxışın mətni jurnalımızın bu sayında oxucularımızın diqqətinə təqdim olunur).*

Ali Məhkəmənin sədri Ramiz Rzayev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik dövlət quruculuğu prosesinin uğurla davam etdirildiyini, son dövrlərdə Azərbaycanda vəkillik institutunun inkişafı ilə bağlı keçirilən islahatların, vəkillərin sayının kifayət qədər artırılmasının, maddi-texniki bazanın möhkəmləndirilməsinin insan hüquq və azadlıqlarının müdafiəsinə layiqli töhfə verəcəyini bildirib.

Baş prokuror Zakir Qaralov çıxışında son illər ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə əlaqədar vəkillik institutunun da təkmilləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, həyata keçirilən mütərəqqi islahatlar vəkillik institutunun öz fəaliyyətini müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil etməsinə, regionlarda hüquq infrastrukturunun genişlənməsinə, onun kadr korpusunun gənc hüquqşünaslar hesabına formalaşdırılmasına, vətəndaşlara daha keyfiyyətli hüquqi yardım göstərməsinə şərait yaradıb.

GIZ-in Azərbaycan üzrə direktoru S. Fonteyn, Cəmiyyətin hüquq layihəsinin rəhbəri T. Herrman çıxışlarında konfransın əhəmiyyətini yüksək qiymətləndiriblər.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxışında 2019-cu ilin Azərbaycan vəkilliyi üçün əlamətdar olduğunu, bununla əlaqədar Kollegiya tərəfindən silsilə tədbirlərin keçirildiyini bildirib. O, konfransın məqsədi və proqramı barədə məlumat verib, son dövrdə Azərbaycanda vəkillik peşəsinin inkişafı istiqamətində görülən tədbirlər, Azərbaycan Prezidentinin 2018-ci il 22 fevral tarixli Sərəncamının, 2019-cu il 3 aprel tarixli Fərmanının əhəmiyyətindən, ölkəmizdə bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması və məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsindən danışıb. Kollegiyanın sədri konfransın müxtəlif ölkələrlə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq baxımından əhəmiyyətini qeyd edib.

Sonra Türkiyə Barolar Birliyinin sədri, Türkdilli və Əqrəba Ölkələrin Vəkillik Təşkilatları Birliyinin (Türk-Av) rəhbəri Metin Feyzioğlu, Rusiya Federal Vəkillər Palatasının prezidenti Yuri Pilipenko, Gürcüstan Vəkillər Kollegiyasının sədri David Asatiani, Bütöv Çin Vəkillər Birliyinin vitse-prezidenti Cu Cenqfu, İran Vəkillər Kollegiyası Birliyinin rəhbəri Morteza Şahbazinia, Belarus Respublikası Vəkillər Kollegiyasının sədri, Belarus Milli Məclisinin qanunvericilik və hüquq siyasəti daimi komissiyasının sədr müavini Viktor Çaiçits, Ukrayna Milli Vəkillər Kollegiyasının prezidenti Lidiya İzovitova, Özbəkistan Respublikası Vəkillər Palatasının sədri Alim Ernazarov, Litva Vəkillər Kollegiyasının vitse-prezidenti Mindauqas Kukaitis vəkillik fəaliyyətində müasir çağırışlarla bağlı ölkələrinin təcrübələrini bölüşüblər.

# Azərbaycan Vəkilliyinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda ədliyyə naziri Fikrət Məmmədovun çıxışı




**Hörmətli tədbir iştirakçıları!**
**Əziz qonaqlar!**
**Xanımlar və cənablar!**

İlk növbədə hörmətli qonaqları salamlayır, bütün vəkilləri əlamətdar yubileylər münasibətilə ürəkdən təbrik edir, mühüm və gərəkli fəaliyyətlərində uğurlar arzulayıram.

Vəkillik peşəsi Azərbaycanda qədim və zəngin köklərə malikdir.

Bu şərəfli peşə barədə ilk məlumatlar hələ Miladdan əvvəl "Avesta"da - Azərbaycan ərazisində mövcud olmuş Zərdüştlük dininin müqəddəs kitabında əks olunmuş, Azərbaycan vəkilliyi zəngin və keşməkeşli inkişaf yolu keçmişdir.

Vəkilliyin mühüm hüquq təsisatı kimi formalaşmasının 1919-cu ilə - Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf etməsi, Cümhuriyyət hökumətində vəkillərin geniş təmsil olunması xüsusilə əlamətdardır.

Təbii ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra totalitar rejimin mahiyyətinə uyğun olaraq müstəqil vəkillik institutundan söhbət gedə bilməzdi. Müdrik kəlamda deyildiyi kimi "Ədalət mühakiməsi olmayan ölkədə, vəkillik də ola bilməz".

Sovetlər dönəmində vəkillik qurumu müstəqil olmamış, onilliklər ərzində Ədliyyə Nazirliyinin faktiki tabeliyində olmuş və fəaliyyəti müxtəlif əsasnamələrlə tənzimlənmişdir.

Vəkillik xidməti müstəqil hüquq təsisatı kimi yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Məhz ölkəmiz üçün demokratik hüquqi dövlət quruculuğu yolu seçmiş dahi öndərin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar çərçivəsində vəkillik haqqında ilk dəfə ayrıca Qanun qəbul olundu, onun müstəqil təsisat kimi inkişafına əsaslı zəmin yaradıldı.

Bu gün məhkəmə-hüquq sistemində mühüm və əvəzsiz rolu olan vəkillik möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi islahatlar aparılmaqla təkmil bir struktura çevrilir, onun fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması naminə mühüm tədbirlər görülür.

Vəkillik təsisatının böyük əhəmiyyəti nəzərə alınaraq vəkilliyin inkişafına dəstək vermək məqsədilə dövlət başçısının ötən il imzaladığı Sərəncam xüsusi qeyd olunmalıdır.

Vəkil təkcə təmsil etdiyi şəxslər üçün hüquqi yardım göstərmir. O, həm də ədalət mühakiməsinin həyata keçirilməsində fəal iştirak etməklə öz peşəkarlığı ilə məhkəmə fəaliyyətinin keyfiyyətinə, vahid məhkəmə təcrübəsinin formalaşmasına töhfələr verir.

Məhz buna görə Azərbaycan Vəkillər Kollegiyası məhkəmə hakimiyyətinin özünüidarə orqanları olan Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində təmsil olunur, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində, habelə hakim korpusunun komplektləşdirilməsində fəal iştirak edir.

Yeri gəlmişkən qeyd etməliyəm ki, Azərbaycanda hakimliyə namizədlərin seçimi Avropada ən mütərəqqi üsullarla həyata keçirilir. Təsadüfi deyil ki, Avropa İttifaqı və Avropa Şurası bu prosesi yerində izləməklə onu ən şəffaf prosedur kimi dəyərəndirmiş və digər Avropa dövlətlərinə tövsiyə etmişdir. Burada Vəkillər Kollegiyasının payı danılmazdır. Xüsusilə uzun müddət Seçki Komitəsinin vəkil kimi fəal

üzvü olmuş Anar Bağırovun əməyi qeyd olunmalıdır.

Həmçinin peşəkar hüquq təsisatlarının formalaşmasında vəkillik mühüm kadr beşiyidir. Belə ki, bu gün hakim korpusunun əhəmiyyətli hissəsi əvvəllər vəkil işləmiş hüquqşünaslardır. Hakim olmaq üçün müsabiqədə iştirak edən hər 4-5 nəfərdən biri vəkildir. Eyni zamanda vəkillik xidmətinin nüfuzunun artmasının göstəricisidir ki, çoxsaylı ədliyyə, prokurorluq və məhkəmə işçiləri vəkil olmağa üstünlük verir və onların sırasına qoşulurlar.

Yeri gəlmişkən, Ədliyyə Nazirliyi Vəkillər Kollegiyası ilə tam hüquqlu tərəfdaş kimi sıx səmərəli əməkdaşlıq edir. Nazirlik Kollegiyanın İxtisas Komissiyasının formalaşmasında iştirak edir, Ədliyyə Akademiyasında vəkillik fəaliyyəti üçün ixtisaslı kadrlar hazırlanır, o cümlədən ədliyyə işçiləri, prokurorlar, hakimlərlə yanaşı vəkilliyə namizədlərin də peşə fəaliyyətinə buraxılması məqsədilə icbari təlimlər keçirilir, vəkilliyin konseptual problemləri ilə bağlı elmi araşdırmalar aparılır.

Hazırda Azərbaycan vəkilliyi öz inkişafının yeni, mühüm mərhələsini yaşayır. Onun fəaliyyəti müasirləşir. Məhkəmə-hüquq sisteminin inkişafına uyğun olaraq vəkillik xidmətinə ehtiyac günbəgün çoxalır.

Balzakın təbirincə desək "Hüquqi məsələlərdə düşüncəyə deyil, vəkilə müraciət edilməlidir". Elə ona görə də son dövrdə çevik qaydada, şəffaf müsabiqələrlə keçirilən seçimlər nəticəsində ölkəmizdə vəkillərin sayı 2 dəfəyədək artıb. Və bu tendensiya davam etməkdədir. Həmçinin Kollegiyanın infrastrukturunun günbəgün müasirləşməsi, o cümlədən regional vəkil bürolarının yaradılması, habelə yüksək keyfiyyətli hüquqi yardımın təşkili üzrə digər mütərəqqi tədbirlər hər birimizi sevindirir.

"Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında" dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanında Vəkillər Kollegiyası ilə bağlı mühüm müddəaların nəzərdə tutulması ölkəmizdə vəkillik institutuna etimadın növbəti təzahürü olmuşdur.

**Hörmətli konfrans iştirakçıları!**

Bu gün müasirləşən və qloballaşan dünyada vəkillərin rolu durmadan artır. Vəkillərdən yeni hüquqi vərdiş və bacarıqlar tələb edilir. O, insanlar üçün həm məlumatlı ekspert, həm müdrik məsləhətçi, həm də himayəçi olmalıdır.

Bu baxımdan "Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusuna həsr olunmuş konfrans mühüm əhəmiyyət kəsb edir. Ümid edirəm ki, bugünkü müzakirələr vəkillik institutunun təkmilləşdirilməsində mühüm rol oynayacaq, özünün 100 illiyini qeyd edən Azərbaycan vəkilliyinin inkişafına xüsusi töhfə olacaqdır.

Konfransın işinə uğurlar diləyir, bu əlamətdar yubiley münasibətilə bütün vəkillərimizi təbrik edir, hər birinizə müvəffəqiyyətlər arzulayıram.

*Diqqətinizə görə minnətdaram!*

# Hüquq-mühafizə orqanlarının gənc əməkdaşlarının birinci Forumu

**Oktyabrın 18-də Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının gənc əməkdaşlarının "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" mövzusunda birinci Forumu keçirilib.**

Forumun məqsədi ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətə, o cümlədən müstəqilliyin, dövlətçiliyin, təhlükəsizliyin və iqtisadi mənafelərinin etibarlı qorunması işinə ölkənin hüquq-mühafizə orqanlarında xidmət edən gənc əməkdaşların töhfə vermək əzminin daha da yüksəldilməsi, ölkədə sabitliyin, dövlət təhlükəsizliyinin, ictimai qayda və asayişin, həmçinin dövlət-vətəndaş həmrəyliyinin etibarlı təmin olunması sahəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılmasıdır.

Forumda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər, Gənclər siyasəti və idman məsələləri şöbələrinin müdirləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, Milli Məclisin komitə sədrləri, Azərbaycanın Milli qəhrəmanları,











təhlükəsizlik orqanlarının veteranları, Müdafiə, Gənclər və İdman nazirliklərinin, Xarici Kəşfiyyat, Xüsusi Dövlət Mühafizə, Dövlət Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərinin, "ASAN xidmət"in, Gənclər Fondunun, Gənclər Təşkilatları Milli Şurasının rəhbərləri və əməkdaşları iştirak ediblər.

Tədbirdə Azərbaycanın müstəqillik yolunu və dövlət quruculuğunu, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən fəal hüquq-mühafizə siyasətini əks etdirən film nümayiş olunub.

Prezidentin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbir iştirakçılarını dövlət müstəqilliyi günü münasibətilə təbrik edərək bildirib ki, belə bir forumun keçirilməsi gənc əməkdaşların səmərəli təmaslar qurmasına kömək göstərməklə yanaşı, onların müstəqilliyimizin və dövlətçiliyimizin əbədi, daimi və dönməz olması üçün üzərilərinə düşən vəzifələri hər zaman vicdanla yerinə yetirməyə hazır olduqlarını nümayiş etdirir.

Prezidentin köməkçisi gənclərin Azərbaycanda dövlət siyasətinin aktiv iştirakçısı və aparıcı qüvvəsi olduğunu, onların ictimai fəallığının daha da yüksəldiyini, idarəetmədə rolunun artdığını vurğulayıb, hazırda hüquq-mühafizə və xüsusi xidmət orqanlarında çalışan əməkdaşların yarısını gənclərin təşkil etdiyini bildirib.

F.Ələsgərov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gənclərə, onların təhsilinə və inkişafına, dövlət idarəçiliyinə gənc kadrların cəlb olunmasına hər zaman xüsusi önəm verdiyini, gənclərə qayğının Prezident İlham Əliyevin də daim diqqət mərkəzində dayandığını qeyd edərək söyləyib ki, hər bir gəncin əsas vəzifəsinin müstəqilliyi möhkəmləndirmək olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və onlarla fəxr etdiyini bildirir.

Prezidentin köməkçisi həmçinin bacarıqlı və istedadlı gənc nəsil yetişməsindən, son vaxtlar hüquq-mühafizə orqanlarında həyata keçirilən mühüm islahatlardan danışıb, ölkəmizdə xarici və bəzən də dövlətimizin müstəqilliyinə yönəlmiş daxili təhdidlər olduğunu və bununla mübarizə aparıldığını qeyd edərək gənclərin milli maraqları rəhbər tutmaqla, ölkədə və dünyada gedən ictimai siyasi proseslərə adekvat qiymət verməyi bacarmalı, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli olduqlarını söyləyib.

Forumda həmçinin, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev, Baş Prokuror Zakir Qaralov, vergilər naziri Mikayıl Cabbarov, daxili işlər nazirinin müavini İsmət Əliyev çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar.

Sonra tədbirdə hüquq-mühafizə orqanlarının gənc əməkdaşları - Azərbaycanın Milli Qəhrəmanı Sahil Məmmədov, Baş Prokurorluğun əməkdaşı, ədliyyə müşaviri Toğrul Muxtarov, Dövlət Gömrük Komitəsinin əməkdaşı, gömrük xidməti mayoru Eldar Abbasov, Daxili İşlər Nazirliyinin əməkdaşı, polis leytenantı Ağasəlim Pirəliyev, Ədliyyə Nazirliyinin əməkdaşı, III dərəcəli ədliyyə qulluqçusu Səbinə Hüseynova, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, baş leytenant Sənan Nəsirli, Dövlət Sərhəd Xidmətinin əməkdaşı, baş leytenant Fərid Mehbalı, DTX-nin əməkdaşı Elşən Cəfərli çıxış ediblər.

***

*Ədliyyə Nazirliyinin əməkdaşı S.Hüseynovanın çıxışı*

Hörmətli forum iştirakçıları,

Hər birimiz üçün xüsusi əhəmiyyət kəsb edən hüquq-mühafizə orqanları gənclərinin ilk Forumunda ədliyyə orqanlarının gənc əməkdaşı kimi çıxış etməkdən yüksək qürur hissi keçirirəm.

Müstəqil Azərbaycan gəncliyinin hərtərəfli inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin azərbaycançılıq, milli özünüdərk və dövlətçilik ideyaları gənclərin müasir, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasına xidmət edir.

Bu gün biz gənclər dahi



öndərin hüquq-mühafizə orqanları əməkdaşlarına nəsihət etdiyi müstəqil Azərbaycan dövlətinə sədaqət, saflıq və yüksək mənəvi keyfiyyətlər kimi dəyərləri fəaliyyətimizdə rəhbər tuturuq.

Fəxrlə deyə bilərik ki, Ümummilli Liderimizin uzaqgörən ideyaları əsasında gənclər siyasəti cənab Prezidentimizin rəhbərliyi ilə uğurla həyata keçirilir, Azərbaycan gəncliyinin hərtərəfli inkişafına, cəmiyyətin bütün sahələrində fəal iştirakına əlverişli imkanlar yaradılır. Gənclərə daim dəstək göstərilir, bu sahədə mükəmməl qanunvericilik bazası mövcuddur, müasir düşüncəli gənc nəslin inkişafına xidmət edən Dövlət proqramları, strategiyalar uğurla həyata keçirilir.

Bu gün gənclərin ölkəmizin ictimai-siyasi həyatında, cəmiyyətdə fəallığı, təşəbbüskarlığı artır, vətəndaşlıq mövqeyi möhkəmlənir. Eyni zamanda, hakimiyyətin hər üç qolunda - icra, qanunverici və məhkəmə hakimiyyəti orqanlarında geniş təmsil olunurlar.

İstedadlı gənclərin dəstəklənməsi, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılması üzrə məqsədyönlü işlər görülür, bu sahədə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd olunmalıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın nümunəvi fəaliyyəti Azərbaycan gəncliyinə örnəkdir.

Sevindirici haldır ki, bu gün dövlət idarəçiliyində, o cümlədən hüquq-mühafizə orqanlarında çalışan gənclər sırasında çoxsaylı qadınlar da uğurla fəaliyyət göstərirlər.

Mən də gənc ədliyyə işçisi olaraq dövlətimizin gənclərə qayğısını daim üzərimdə hiss edirəm. Bu gün gənclər ədliyyə orqanlarında geniş təmsil olunur, nazirliyin rəhbərliyi bizlərə böyük etimad göstərir, vəzifədə irəli çəkilir, mütəmadi görüşlər keçirilərək qayğılarımız və fikirlərimiz öyrənilir.

Ədliyyə Nazirliyində iştirakçısı olduğum qulluğa qəbulun şəffaf müsabiqə əsasında aparılmasına, gənclərin layiqli hüquq-mühafizə orqanı əməkdaşı kimi formalaşmasına, nizam-intizam, etik davranış qaydalarına dönmədən əməl olunmasına, xarici dil və informasiya-kommunikasiya texnologiyaları sahəsində zəruri təcrübənin toplanmasına daim xüsusi önəm verilir, bu məqsədlə nazirliyin Ədliyyə Akademiyasında bizlərə mütəmadi təlimlər keçirilir.

Yeri gəlmişkən qeyd edim ki, hazırda çoxminli ədliyyə orqanlarında çalışan əməkdaşların təxminən yarısını gənclər, qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri isə nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini təşkil edir.

Son illər onlarla gənc ədliyyə işçilərinin Prezident Administrasiyasına, Nazirlər Kabinetinə irəli çəkilməsi, məhkəmə hakimiyyətində geniş təmsil olunması bizlərdə böyük stimul yaradır.

Cəmiyyətimizin fəal üzvü olan gənclər bu gün həm də ölkədə geniş vüsət alan könüllülük hərəkatının aparıcısı qüvvələridir.

Könüllülər institutu ədliyyə orqanlarında da geniş təşviq edilir və bu hərəkat ölkə başçısının bu ilin fevralında gənclərlə ümumrespublika toplantısında çağırışından sonra daha geniş vüsət almışdır. Həmin çağırışdan sonra bu günədək 1.300-ə yaxın gənc könüllü ədliyyə fəaliyyətinə cəlb olunmuşdur.

Artıq hər birimiz kollektivlərimizdə könüllülərlə mütəmadi təmasda olur və onların işə həvəslə yanaşmalarının birbaşa şahidi oluruq. Bunun nəticəsidir ki, 70-ə yaxın könüllü artıq daimi işə qəbul edilmişdir.

Biz gənclərə yaradılan bu cür yüksək şərait və geniş imkanlar hər birimizin üzərinə mühüm vəzifələr qoyur.

Bu gün respublikamız möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə inamlı və davamlı inkişaf yolundadır. Təbiidir ki, biz də bu yolda daha çox çalışmalı, müasir çağırışlara uyğun olaraq bilik və bacarığımızı, potensiallarımızı artırmalı, görülən işlərə öz töhfələrimizi verməliyik.

Burada möhtərəm Prezidentimiz İlham Əliyevin gənclərlə bağlı kəlamını xatırlatmaq istərdim: "Gənclər bu gün Azərbaycanın çox fəal təbəqəsidir və gələcəkdə Azərbaycanı onlar idarə edəcəklər".

Bu siyasətin davamı olaraq dövlət başçısının 3 gün öncə müasir, savadlı, vətənə bağlı gənc kadrların dövlət qurumlarına cəlb edilməsi barədə verdiyi yeni tapşırıqları dərk edərək bizə göstərilən etimadı layiqincə doğrultmalıyıq.

Fürsətdən istifadə edərək forum iştirakçılarını "Dövlət Müstəqilliyi Günü" münasibətilə ədliyyə işçiləri adından təbrik edirəm.

Bir gənc kimi hər birimiz ölkə başçısının ətrafında sıx birləşərək bundan sonra da dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi naminə qətiyyətlə öz mövqeyimizi bildirəcək, Vətənimizə, xalqımıza və Prezidentimizə ən sadiq vətəndaş olacağıq.

*Diqqətinizə görə təşəkkür edirəm.*

***

Digər gənclər də çıxışlarında onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, hüquq-mühafizə orqanlarında çalışan gənclər dövlətimizin başçısının siyasi kursunu dəstəkləyir və onun ətrafında sıx birləşib. Onlar müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yönələn, sabitliyin pozulması niyyəti güdən hər hansı təxribatın qarşısını almağa hazırdırlar.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Forum iştirakçıları adından müraciət qəbul edilib.

Tədbir Forumun qətnaməsinin qəbul olunması ilə başa çatıb.

# Avropa ədliyyə nazirlərinin konfransı keçirilib

**Avropa Şurasının təsis edilməsinin 70 illiyi münasibətilə silsilə tədbirlər təşkil olunur, oktyabrın 14-15-də Fransanın Avropa Şurası (AŞ) Nazirlər Komitəsində sədrliyi çərçivəsində Strasburqda "Avropada ədalət mühakiməsinə rəqəmsal çağırışlar" mövzusunda Avropa ədliyyə nazirlərinin konfransı keçirilib.**

Tədbirdə ölkəmizi ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov nümayəndə heyəti ilə təmsil edib.

Konfransı əsas məruzə ilə Fransanın ədliyyə naziri Nikol Belloubet açıb. AŞ-nın baş katibi Mariya Peyçinoviç Buriç, AŞ Parlament Assambleyasının prezidenti Lilian Mori Paskye, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Linos-Aleksandr Sisilyanos isə giriş sözü ilə çıxış ediblər.

Tədbirdə rəqəmsal dövrdə hüquqa və ədalət mühakiməsinə əlçatanlıq, müasir texnologiyaların cinayət mühakiməsinə təsiri kimi aktual məsələlər müzakirə olunub, nazirlər tərə-






findən bu sahədə yeni tendensiyalara, innovasiyalara və yaxşı təcrübələrə dair təqdimatlar keçirilib.

Birinci sessiyada çıxış edən ədliyyə naziri F.Məmmədov Azərbaycanda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlardan, o cümlədən məhkəmə fəaliyyətində rəqəmsal texnologiyanın tətbiqi üzrə həyata keçirilən tədbirlərdən danışıb, bu sahədə ölkəmizin müsbət təcrübəsi ilə bölüşüb.

Dünya Bankı ilə əməkdaşlıqda yüksək texnologiya ilə təchiz olunmuş məhkəmə infrastrukturunun müasirləşdirilməsi, dövlət başçısının 13 fevral 2014-cü il tarixli Sərəncamına əsasən yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və onun əsas komponentləri - məhkəmələrin vahid internet portalı, proses iştirakçılarının şəxsi elektron kabineti, məhkəmə qərarlarının vahid reyestri, habelə əmr icraatı üzrə işlərə elektron qaydada baxılması, məhkəmə fəaliyyətində süni intellektdən istifadə və s. barədə məlumat verilib.



***Konfrans çərçivəsində Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüş***

Çıxışda iştirakçıların diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə cəlb edilib, Ermənistan rəhbərliyinin aqressiv bəyanatları beynəlxalq ictimaiyyətdə narahatlıq doğurmaqla buna ciddi reaksiya verilməsinin zəruriliyi vurğulanıb.

Çıxışın mətni iştirakçılar arasında paylanılıb, Azərbaycan təcrübəsi maraqla qarşılanıb *(Çıxışın Azərbaycan dilinə tərcümə olunmuş mətni jurnalımızın bu sayında oxuculara təqdim olunur).*

Konfrans çərçivəsində Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə ikitərəfli görüş keçirilib. Görüşdə Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, səmərəli hüquqi əməkdaşlıqdan məmnunluq ifadə olunub, qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə edilib.

Eyni zamanda, bir sıra digər dövlətlərin ədliyyə nazirləri, habelə Avropa Şurasının rəhbər şəxsləri ilə işgüzar görüşlər keçirilərək əməkdaşlığa dair danışıqlar aparılıb.

Tədbirlərdə Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak edib.

*"Avropada ədalət mühakiməsinə rəqəmsal çağırışlar" mövzusunda Avropa ədliyyə nazirlərinin konfransında Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışının Azərbaycan dilinə tərcümə olunmuş mətni*
*Strasburq, 14-15 oktyabr 2019-cu il*

# Rəqəmsal dövrdə hüquqa və ədalət mühakiməsinə əlçatanlıq




*Hörmətli həmkarlar, xanımlar və cənablar,*

İlk öncə belə bir aktual məsələ ilə bağlı nazirlər konfransının keçirilməsinə görə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edən Fransa tərəfinə minnətdarlığımı bildirmək istəyirəm. Avropa Şurasının 70 illiyinin qeyd olunduğu ildə süni intellekt məsələlərini müzakirə etməyimiz çox rəmzi məna daşıyır.

Süni intellekt inqilabı artıq gələcək deyil və biz onun qanunun aliliyinə artan təsirinin şahidi oluruq.

Müasir informasiya texnologiyalarından istifadə etmədən ədalət mühakiməsinin səmərəli həyata keçirilməsini artıq təsəvvür etmək mümkün deyil. Təsadüfi deyil ki, mütəxəssislərin proqnozuna görə, 10 ildən sonra hüquqşünasların və hətta hakimlərin funksiyalarının 80%-i robot texnologiyaları ilə əvəzlənəcəkdir.

Burada Avropa Şurasının bu məsələdə uzaqgörənliyini qeyd etmək istərdim. Belə ki, ədalət mühakiməsi həyata keçirilərkən informasiya texnologiyalarının və süni intellektin tətbiqinə dair bir sıra çox mühüm sənədlərin, o cümlədən Etik Xartiyanın qəbulu ilə nəticələnən dolğun tədqiqatlar aparılmışdır. Artıq onlar nəinki Avropa, dünya ölkələri üçün "yol xəritəsi"nə çevrilmişlər.

Bu gün bir çox ölkələrdə informasiya texnologiyaları məhkəmə fəaliyyətində sadəcə tətbiq edilmir, artıq blokçeyn texnologiyasından istifadə olunur və bəzi kateqoriya işlərə hakim olmadan baxılır.

Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə xüsusi diqqət yetirilərək ölkəmiz bu sahədə nəinki geri qalmamağa çalışır, hətta bəzi istiqamətlərdə pioner kimi tanınır. Vətəndaşlar, biznes və dövlət arasındakı münasibətləri rəqəmsal mühitə çevirərək, onlara öz hüquqlarını daha əlçatan və sadələşdirilmiş formada həyata keçirmələrinə imkan yaratmışıq.

Bunun üçün məsələyə strateji və kompleks şəkildə yanaşılmış və ən qabaqcıl informasiya texnologiyaları ilə təchiz olunmuş, konseptual baxımdan yeni məhkəmə infrastrukturu, başqa sözlə desək, yüksək texnoloji məhkəmələr yaradılmışdır. Avropa Şurasının tədqiqatları məhz bu yanaşmanı təklif edir.

Dünya Bankı ilə birgə işlənilmiş və ölkə Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən dünyada mövcud olan innovasiyalar nəzərə alınmaqla hazırlanmış "Elektron məhkəmə" informasiya sistemi istifadəyə verilmişdir.

Bu sistemə göstərilən marağı nəzərə alaraq, onunla bağlı bəzi məqamları diqqətinizə çatdırmaq istərdim.

Belə ki, sistem məhkəməyə müraciət edildiyi andan məhkəmə qərarının icrasına qədər olan bütün prosesi əhatə edir, elektron sənəd dövriyyəsini, məhkəmə proseslərinin audio-video yazılışını, video-konfransların keçirilməsini təmin edir, sənədləri əldə etmə müddətlərini 10 dəfəyədək azaldır. Həmçinin, məhkəməyə əlçatanlığı əhəmiyyətli dərəcədə genişləndirir, süründürməçiliyin

qarşısını alır, şəffaflığı və operativliyi təmin edir.

Eyni zamanda onun unikal elementi olan vahid məhkəmə portalı məhkəmə sistemi haqqında tam məlumat verməklə yanaşı, iddia ərizələrinin və digər məhkəmə sənədlərinin nümunələrini təqdim edir, təmənnasız qanunvericilik bazasına və s. giriş imkanları yaradır və bununla da hüquqa əlçatanlığı genişləndirir.

Portalın digər bir xüsusiyyəti "şəxsi elektron kabineti"n mövcudluğudur ki, bu da onlayn qaydada iddia qaldırmaq və məhkəmə rüsumlarını elektron qaydada ödəmək, işlərin gedişatı haqqında məlumat almaq və hətta qərarların özünü əldə etmək imkanı yaradır. Kabinetin istifadəçilərinin sayının son illər dəfələrlə artaraq ona tələbatın yüksəlməsi bizim üçün çox sevindiricidir.

Bununla yanaşı, məhkəməyə əlçatanlığın daha da asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştirak etməyə və s. imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlanmışdır.

"Elektron məhkəmə" informasiya sistemi artıq respublika məhkəmələrinin 60%-də fəaliyyət göstərir və məqsədimiz dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanında verilmiş tapşırığa əsasən, bütün məhkəmələri tez bir zamanda əhatə etməkdir.

Təvazökarlıqdan uzaq olsa da, Dünya Bankı bu sahədə birgə həyata keçirilən layihəni dünyada ən uğurlu kimi tanımış və nailiyyətlərimiz həmçinin, "Doing Business 2020" hesabatında öz əksini tapmışdır. Təcrübəmizin tələbli olduğunu nəzərə alaraq, məmnuniyyətlə onunla bölüşürük və gələcəkdə də buna hazırıq.

Bu gün məhkəmə fəaliyyətində süni intellektin tətbiqi ilə bağlı yeni çağırışlar mövcuddur.

Bu sahədə ilkin olaraq sayı bəzən bütün mülki işlərin yarısı qədər olan əmr icraatı üzrə məhkəmə işlərinə baxılması üçün avtomatlaşdırılmış sistem hazırlanaraq uğurla tətbiq edilməyə başlanılmış və həmin işlərin elektron qaydada 24 saat ərzində avtomatik rejimdə asan həlli imkanı yaradılmışdır. Süni intellekt alqoritmləri əsasında on minlərlə belə məhkəmə qərarı qəbul edilmişdir. Bizim üçün süni intellektdən istifadənin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əhali sayına nisbətdə Avropada ən az olan hakim və məhkəmə işçilərimizin iş yükünün əhəmiyyətli dərəcədə azaldılmasıdır. Bu üsulla 250 hakim, yəni faktiki olaraq ölkənin məhkəmə korpusunun yarısı belə kateqoriya işlərə baxılmasından azad olmuş və həmin işlərin öhdəsindən cəmi 4 hakim gələ bilmişdir.

Bundan əlavə, süni intellektdən bəzi kateqoriyalar üzrə məhkəmə qərarlarının formalaşdırılmasında da istifadə olunur. Yaradılan "Məhkəmə qərarlarının vahid elektron məlumat bazası" yaxın gələcəkdə yekun qərarların avtomatlaşdırılmış qaydada hazırlanmasını təmin edəcəkdir.

İnformasiya texnologiyalarının tətbiqi məhkəmə idarəetmə sahəsində də mühüm əhəmiyyət kəsb edir. Bizim hazırladığımız sistem elektron statistika əsasında müxtəlif analitik hesabatları hazırlamağa, məhkəmələrin və hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə və məhsuldarlığını müəyyən etməyə imkan verir. Həmçinin hakimlərin və məhkəmə katiblərinin ştatlarının və hətta məhkəmə büdcəsinin səmərəli şəkildə bölüşdürülməsinə kömək edir.

Bu sistem Avropa Şurası tərəfindən yüksək qiymətləndirilmiş və "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihəmiz "Ədliyyənin Kristal Tərəzi" xüsusi mükafatına layiq bilinmişdir.

Burada təəssüf hissi ilə qeyd etmək istərdim ki, bütün bu islahatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi şəraitində həyata keçirilmişdir. Bu münaqişə nəticəsində Ermənistan tərəfindən torpaqlarımızın 20 faizi işğal olunmuş və bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bununla da BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri kobud şəkildə pozulur. Üstəlik, Ermənistan rəhbərliyinin təcavüzkar destruktiv bəyanatları ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan sülh danışıqlarına mane olur.

*Hörmətli həmkarlar!*

Bu gün biz müxtəlif ölkələrdən olan həmkarlarımızın nailiyyətləri və ən yaxşı təcrübələri ilə tanış olur və bundan bəhrələnirik.

Ümid edirəm ki, müzakirələrin faydası qısa zamanda özünü göstərəcək və Avropada və onun hüdudlarından kənarda böyük çağırış olan ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına öz töhfələrini verəcəkdir.

*Diqqətinizə görə təşəkkür edirəm.*

# Azərbaycan Avropa Şurasının daha bir müqaviləsinə imza atıb

**Ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində regionun ən sabit və təhlükəsiz dövləti olan Azərbaycanda cinayətkarlığa qarşı qəti mübarizə aparılır, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Ölkəmiz cinayətkarlıqla qlobal mübarizədə fəal iştirak edərək cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sahəsində konvensiyalardan və ikitərəfli müqavilələrdən irəli gələn öhdəlikləri vicdanla yerinə yetirir.**

Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq cinayət hüququnun qədim institutlarından olan cinayət törətmiş şəxslərin təslim edilməsinə - ekstradisiyasına dair bir sıra dövlətlərlə müqavilələr bağlanılıb, habelə MDB çərçivəsində müvafiq konvensiyalar üzrə əməkdaşlıq edilir. Eyni zamanda, dövlətimiz 50 dövlət tərəfindən ratifikasiya olunmuş "Ekstradisiya haqqında" 1957-ci il tarixli Avropa Konvensiyasının iştirakçısı olmaqla Ədliyyə Nazirliyi tərəfindən səlahiyyətli qurum kimi həmin dövlətlərlə səmərəli əməkdaşlıq edir.

Həmin sənədlər cinayətkarlığın yayılmasının qarşısının alınması, cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunması və bununla da ədalət mühakiməsinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, Azərbaycan dövləti universal və






regional konvensiyalardan irəli gələn vəzifələrin icrası ilə yanaşı, cinayətkarlıqla mübarizəyə xüsusi önəm verərək ekstradisiya haqqında xüsusi qanun qəbul edib ki, bu da xarici tərəfdaşlarımızla bu sahədə müqavilə olmadan belə əməkdaşlıq etməyə imkan verir. Bütün bunlar cinayətkarların özünü təhlükəsizlikdə hiss etmələrinin qarşısını alan çox mühüm təsirli mexanizm olmaqla cəzanın labüdlüyü prinsipini təmin edir.

Qeyd olunan sənədlərə əsasən həyata keçirilən əməkdaşlıq çərçivəsində son dövrdə 220-dək cinayətkar şəxslərin Azərbaycana ekstradisiya edilməsinə nail olunub.

Avropa Şurası tərəfindən "Ekstradisiya haqqında" Avropa Konvensiyasına dair Dördüncü Əlavə Protokol qəbul olunub.

Avropa məkanında cinayət-



karların təslim edilməsində səmərəliliyin və operativliyin artırılmasına, ekstradisiya prosedurunun müasir dövrün tələblərinə adaptasiya olunmasına, bəzi bürokratik əngəllərin aradan qaldırılmasına, o cümlədən sənədlərin elektron qaydada göndərilməsinə, tranzit prosedurunun sadələşdirilməsinə xidmət edən Protokolun müstəsna əhəmiyyəti nəzərə alınaraq Azərbaycan tərəfindən həmin sənədə qoşulması qərara alınıb.

Bununla əlaqədar dövlətimiz adından bu sənədi imzalamaq üçün ölkə başçısı tərəfindən verilmiş səlahiyyətə əsasən Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədovun Strasburqa səfəri çərçivəsində oktyabrın 15-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçin və digər məsul şəxslərin iştirakı ilə həmin Protokolun imzalanması mərasimi keçirilib.

Mərasimdən sonra Ədliyyə nazirinin və Baş katibin görüşü olub.

Görüşdə nazir M.Buriçi AŞ-nın 70 illiyinin qeyd olunduğu ildə fəaliyyətə başlaması münasibətilə təbrik edib, Azərbaycan və Avropa Şurası arasında sıx əməkdaşlıqdan bəhs edib, birgə həyata keçirilən layihələrin səmərəsini vurğulayıb, ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına əsasən məhkəmə-hüquq sistemində islahatların yeni mərhələdə davam etdirildiyini qeyd edib.

Söhbət zamanı Avropa Şurası ilə əməkdaşlıqda qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi, infrastrukturun müasirləşdirilməsi və elektron məhkəmənin tətbiqi, hakimlərin Avropa Şurası tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimi və tədrisi, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi və həmin Məhkəməyə təlim səfərlərinin təşkili təqdir olunub.

Azərbaycanın Avropa Şurasının mühüm tərəfdaşı olduğunu vurğulayan xanım M. Buriç AŞPA prezidentinin və AŞ İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğu rəhbərinin Azərbaycana məhsuldar səfərlərini qeyd edib, ölkəmizdə məhkəmə-hüquq sistemindəki islahatları, xüsusilə dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanını yüksək qiymətləndirib, bu sahədə dəstək göstərməyə hazır olduğunu söyləyib. Bildirilib ki, Azərbaycanın məhkəmə-hüquq sistemində yaxşı təcrübəsi Avropa Şurası tərəfindən yayılır.

Baş katib həmçinin, ölkəmizin Avropa Şurasına dəyərli töhfələrini, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasında (CEPEJ) fəal təmsilçiliyini qeyd edib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri, Ermənistanın torpaqlarımıza davam edən hərbi təcavüzü və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi barədə məlumat verilib.

Tədbirdə Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak edib.

# Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir



**Dövlət başçısı cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparıl-maqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Ölkəmiz 140 dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.**

Oktyabrın 25-də İsveçrənin Cenevrə şəhərində Assosiasiyanın rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclası keçirilib. Qanunun Aliliyi və Antikorrupsiya Mərkəzinin Cenevrədəki Ofisində təşkil olunan tədbirdə qurumun vitse-prezidenti, ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov iştirak edib.

İclasda beynəlxalq antikorrupsiya tədbirləri, qurumun gələcək fəaliyyəti və digər təşkilati məsələlər müzakirə olunub.

Tədbirdə F. Məmmədov tərəfindən çıxışlar edilərək Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı aparılan qəti mübarizə, Azərbaycan brendi olan ASAN xidmətin bu sahədə mühüm fəaliyyəti, ölkəmizin səmərəli beynəlxalq antikorrupsiya əməkdaşlığı, xarici tərəfdaşlarla məlumat mübadiləsi və birgə tədris tədbirləri barədə məlumat verilib, təşkilatın inkişafına dair təkliflər və təşəbbüslər irəli sürülüb və onlar bəyənilib.

Səfər çərçivəsində bir sıra dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşlər keçirilərək antikorrupsiya sahəsində birgə fəaliyyətə dair faydalı danışıqlar aparılıb. Həmsöhbətlərin diqqəti həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə cəlb edilib.

# Ədliyyə naziri və nazir müavinləri regionlarda vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq oktyabrın 8-də Ədliyyə naziri Fikrət Məmmədov Füzuli rayonu Horadiz şəhərində Füzuli, Beyləqan və İmişli rayonlarda yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Eyni zamanda, ədliyyə nazirinin müavini Vilayət Zahirov oktyabrın 3-də Xaçmaz rayo-

nunda, nazir müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov isə oktyabrın 12-də Gəncə şəhərində vətəndaşları qəbul ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər çərçivəsində nazir yerli ədliyyə orqanlarının və məhkəmələrin işi, habelə Füzulidə vətəndaşlara ədliyyə və digər sahələrdə xidmətlər göstərən Səyyar ASAN avtobusun fəaliyyəti ilə tanış olub.

Həmçinin, bölgələrə səfər zamanı nazirliyin rəhbərliyi tərəfindən ədliyyə işçiləri və hakimlər ilə müşavirə keçirilərək ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi ilə bağlı görülən işlərə toxunulub, ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti vurğulanıb,







qarşıda duran vəzifələr müzakirə olunub, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin edilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tövsiyə və tapşırıqlar verilib.

Eyni zamanda Penitensiar xidmətin Gəncə şəhərində yerləşən 2 saylı İstintaq təcridxanasına baş çəkilərək, müəssisədə aparılan təmir-abadlıq işləri ilə tanış olunub, həbs edilmiş şəxslərin hüquqlarının və mənafelərinin etibarlı qorunması, təcridxananın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti test imtahanı keçirilib





**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqələrin mütəşəkkil qaydada keçirilməsi, bununla bağlı informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi və şəffaflığın artırılması məqsədilə davamlı tədbirlər görülür.**

Bu tədbirlər çərçivəsində bölgələrdə kadrlara olan ehtiyac nəzərə alınaraq Ədliyyə Nazirliyinin yerli icra və probasiya, həmçinin qeydiyyat qurumları üzrə (Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla) vakant ştat vahidlərinin hazırlıqlı hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə elan edilmiş növbəti müsabiqə üzrə oktyabr ayının 12-də test imtahanı keçirilib.

Dövlət İmtahan Mərkəzi ilə birlikdə fərdi qaydada, kompüter vasitəsilə keçirilmiş imtahanı aidiyyəti dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri izləyib, həmçinin tədbirin gedişi Nazirliyin internet səhifəsi (www.justice.gov.az) vasitəsilə "on-line" rejimində birbaşa canlı yayımlanıb.

"Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test taşırığı 100 sualdan ibarət olub. Hazırkı müsabiqə üzrə oktyabr ayının 9-dək müraciət edən ilk qrup 127 namizədin iştirak etdiyi imtahanın yekununa görə 58 nəfər keçid bal toplayaraq müvəffəqiyyət qazanıb, onlara nəticələrinə dair arayış dərhal yerindəcə təqdim olunub. Həmçinin siyahı Nazirliyin və DİM-nin (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib.

Bildiririk ki, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 gün ərzində, saat 9-dan 18-dək Ədliyyə Nazirliyinin Kadrlar idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər. Kadr sənədlərinin siyahısını və müvafiq nümunələri Nazirliyin internet səhifəsindən əldə etmək mümkündür.

Xatırladırıq ki, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər növbəti mərhələyə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

Eyni zamanda qeyd edilir ki, ərizə qəbulu davam etdirilərək Nazirliyin bölgələrdəki yerli qurumlarında işləmək arzusunda olan ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları müsabiqəyə dəvət olunur.

Əlavə informasiyanı Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, (012) 538-08-85 nömrəli telefonlar vasitəsilə almaq olar.

# Azərbaycan və Türkiyə hüquqi sahədə səmərəli əməkdaşlıq edir

**Ölkəmizlə dost və qardaş Türkiyə arasında hərtərəfli strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətləri çərçivəsində hüquqi əlaqələr xüsusi yer tutur. Bu sahədə çoxşaxəli əməkdaşlığın növbəti təzahürü olaraq, Türkiyə Respublikası Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti oktyabrın 13-17-də Azərbaycanda işgüzar səfərdə olub.**



Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyub, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin və türk əsgərinin məzarını ziyarət edib, onların əziz xatirəsinə dərin ehtiramını bildiriblər.

Sonra Məhkəmə-Hüquq Şurasında Şura və Hakimlərin Seçki Komitəsi üzvləri ilə görüş keçirilib. Görüşdə tarixən qədim köklərə malik olan ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində uğurla inkişaf etdirildiyi bildirilib, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamı xatırlanıb, bu günlərdə ölkəmizdə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün müstəsna əhəmiyyəti qeyd edilib.

Görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan islahatlar, Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsinin fəaliyyəti, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı qanunvericiliyin daim təkmilləşdirilməsi, hakimlərin Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimi barədə qonaqlara ətraflı məlumat verilib.

Azərbaycana ilk dəfə olan səfərindən məmnunluğunu bildirən nümayəndə heyətinin rəhbəri, Hakimlər və Prokurorlar Şurasının dairə rəhbəri Halil Koç ölkələrimizin bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayıb, respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərərək təqdir edib, öz ölkəsində həyata keçirilən islahatlar, o cümlədən Hakimlər və Prokurorlar Şurasının fəaliyyəti barədə müfəssəl məlumat verib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı müzakirələr aparılıb.

Daha sonra qonaqlar Azərbaycan məhkəmə tarixi muzeyi ilə tanış olub və nümayəndə heyətinin rəhbəri xatirə kitabına öz ürək sözlərini yazıb.

***

**Səfər çərçivəsində nümayəndə heyətinin Ədliyyə Nazirliyində görüşü olub.**

Ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərov görüşdə dost və qardaş ölkələrimizin bütün sahələrdə səmərəli əməkdaşlığını, bu əlaqələrin qurulmasında və inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərini, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ikitərəfli münasibətlərin möhkəmləndirilməsində mühüm rolunu qeyd edib, dövlət başçılarının iştirakı ilə Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə toxunaraq dövlətlərimizin bir-birinə dəstəyini vurğulayıb.

A.Cəfərov ölkələrimizin hüquqi sahədə uğurla əməkdaşlıq etdiyini, ədliyyə orqanlarının, o cümlədən Ədliyyə akademiyalarının səmərəli qarşılıqlı fəaliyyətini qeyd edib, Azərbaycanda məhkəmə-hüquq sistemində aparılan islahatlardan

bəhs edərək məhkəmə hakimiyyətinin müstəqil özünü idarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səmərəli fəaliyyəti və Şuranın səlahiyyətlərinin daim artırılması barədə məlumat verib.

Həmçinin, hakimlərin Avropada ən şəffaf seçiminə və tədrisinə toxunularaq həyata keçirilən tədbirlərdə türkiyəli mütəxəssislərin yaxından iştirakı, Türkiyə Ədliyyə Akademiyasının dəstəyi ilə bütün hakimliyə namizədlərin qardaş ölkədə yarım aylıq təcrübə keçmələri məmnunluqla qeyd olunub.

Türkiyə və Azərbaycanın dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu söyləyən Halil Koç Türk Şurasının Zirvə Görüşünün keçirildiyi dövrə təsadüf edən hazırkı səfərin məqsədinin türkdilli ölkələrin hüquq şuralarının bir araya gələrək əlaqələri canlandırmaq olduğunu vurğulayıb, Türkiyənin



Hakimlər və Prokurorlar Şurasının fəaliyyəti haqqında məlumat verib.

Söhbət zamanı əməkdaşlığa dair və digər məsələlər barədə faydalı fikir mübadiləsi aparılıb, ədliyyə fəaliyyəti ilə bağlı maraq doğuran suallar ətraflı cavablandırılıb, Azərbaycanın məhkəmə-hüquq sahəsindəki nailiyyətlərinin təqdirəlayiq olduğu vurğulanaraq qarşılıqlı fəaliyyətin genişləndirilməsinə niyyət ifadə olunub.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

***

Səfər zamanı Türkiyə nümayəndə heyəti ilə Baş Prokurorluqda və Ali Məhkəmədə görüşlər keçirilib, həmçinin qonaqlar Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi, eləcə də paytaxtın mədəni və tarixi abidələri, habelə müasir infrastruktura malik yerli məhkəmə və prokurorluq orqanlarının, Azərbaycan brendi olan ASAN xidmət mərkəzinin fəaliyyəti ilə tanış olublar.

# Ədliyyə Nazirliyində görüş

**Ölkəmizdə səfərdə olan BMT-nin Qida hüququ üzrə xüsusi məruzəçi Hilal Elverin başçılıq etdiyi nümayəndə heyəti ilə oktyabrın 9-da Ədliyyə Nazirliyində görüş keçirilib.**

Görüşdə Azərbaycanda qida təhlükəsizliyi ilə bağlı həyata keçirilən qanunvericilik və institusional tədbirlər, istehlakçıların hüquqlarının məhkəmə müdafiəsinin təmin olunması, bu sahədə əhalinin maarifləndirilməsi, vətəndaşlara pulsuz hüquqi yardımın göstərilməsi barədə səmərəli fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb. Qida təhlükəsizliyi ilə bağlı fəaliyyəti tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi prosesində Ədliyyə Nazirliyinin daim iştirak etdiyi qeyd olunub.



Sonra Ədliyyə nazirinin mü-

avini Azər Cəfərov ilə görüşən xanım H.Elver Azərbaycanın müstəqillik əldə etdikdən sonra sürətli sosial-iqtisadi inkişaf yolu keçdiyini vurğulayıb, səfərlə bağlı təəssüratlarını bölüşüb, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və yaradılan hər cür şəraitə görə minnətdarlığını ifadə edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# MSK-da dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib





**Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən Mərkəzi Seçki Komissiyası (MSK) cari ildə ilk maarifləndirmə layihəsinə start verib.**

Aşağı seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılmasına, onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənməklə bütün respublikanı əhatə edən irimiqyaslı layihənin birinci mərhələsi çərçivəsində oktyabrın 11-də MSK-da ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirilib.

Müşavirədə açılış nitqi ilə çıxış edən MSK-nın sədri Məzahir Pənahov müstəqil Azərbaycan müxtəlif sahələrdə olduğu kimi, seçkilər sferasında da ciddi irəliləyişlər əldə edildiyini diqqətə çatdırıb, Azərbaycanın seçki təcrübəsini nümunə göstərərək, şəffaf seçkilərin keçirilməsinə nail olunduğunu, bütün bölgələrdə məntəqə seçki komissiyaları üçün əlverişli iş şəraitinin yaradıldığını, seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsində maraqlı olduğunu vurğulayıb.

Prezidentin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri Zeynal Nağdəliyev çıxış edərək Azərbaycanda seçkilərə rəhbərlik edən şəxslərin peşəkarlığının yüksək səviyyədə olduğunu, ölkəmizdəki siyasi sabitliyin seçkilərin şəffaf keçirilməsi üçün münbit şərait yaratdığını vurğulayıb. Bildirib ki, vətəndaşların yerli idarəetmə orqanlarına marağı gündən-günə artır. Ölkəmizdə təşviqat işinin düzgün aparılması üçün bütün şərait yaradılıb. Azərbaycanda seçki sistemi təkmilləşdirilib və dünya üçün nümunədir.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə bələdiyyələrin hüquqi bazasının tamamlandığını, qısa müddət ərzində bələdiyyələrin böyük yol keçdiyini bildirib, hər bir vətəndaşın bələdiyyələrin fəaliyyətində iştirakının vacibliyini qeyd edib, bələdiyyə ödənişlərinin yığılması ilə bağlı problemi aradan qaldırmaq üçün Azərbaycan dövləti tərəfindən əməli addımların atıldığını diqqətə çatdırıb.

Baş prokurorun birinci müavini Rüstəm Usubov şəffaf seçkilərin ölkəmizdə demokratiyanın göstəricisi olduğunu, bələdiyyələrin statusunda ciddi dəyişikliklərin edildiyini bildirib, prokurorluq orqanlarının seçki prosesinə xüsusi həssaslıqla yanaşdığını, bu məsələ-

də Mərkəzi Seçki Komissiyası ilə sıx qarşılıqlı fəaliyyəti qeyd edib. O, Seçki prosesinə müdaxilə edən şəxslərin Cinayət və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklərini diqqətə çatdırıb.

Daxili İşlər nazirinin müavini Oruc Zalov qeyd edib ki, seçkilərin sabit şəraitdə keçirilməsi üçün daxili işlər orqanları böyük məsuliyyət daşıyır. Bu seçkilərdə də daxili işlər orqanları şəxsi heyətin sayıqlığının artırılması, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün yerli icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq şəraitində çalışacaqlar.

Ədliyyə nazirinin müavini Azər Cəfərov müşavirədə çıxış edib *(Çıxışın mətni jurnalımızın bu sayında oxucularımızın diqqətinə təqdim olunur).*

Bakı Apellyasiya Məhkəməsinin sədri İman Nağıyev və Ali Məhkəmənin hakimi Xəqani Məmmədov seçki prosesi, bu sahədə qarşıya çıxan problemlər və məsələnin operativ, ədalətli şəkildə araşdırılması barədə ətraflı məlumat veriblər.

MSK Katibliyinin müdiri Rövzət Qasımov, Katibliyin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov və Ümumi şöbənin müdiri Elşən Əsgərov qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı müxtəlif mövzularda təqdimatlarla çıxışlar edib və iştirakçıları maraqlandıran sualları ətraflı cavablandırıblar.

# Vətəndaşların seçki hüquqlarının reallaşmasında ədliyyə orqanlarının rolu

## Müşavirədə ədliyyə nazirinin müavini Azər Cəfərovun çıxışı

**Hörmətli müşavirə iştirakçıları,**

Azərbaycan üçün yerli özünüidarəetmə gənc təsisatdır. Müasir anlamda yerli özünüidarəetmə Avropa ölkələrində XVIII əsrdən, qardaş Türkiyə Cümhuriyyətində XIX əsrin ikinci yarısından mövcud olduğu halda, ölkəmizdə bu institutun əsası cəmi 20 il əvvəl qoyulmuşdur və onun formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bələdiyyələrin təşkilinin və fəaliyyətinin əsas prinsipləri ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir.

Yerli demokratiyanın qurulması üçün qısa müddətdə zəruri qanunvericilik və təşkilati tədbirlər görülmüş və 1999-cu ildə Azərbaycan tarixində ilk



dəfə demokratik əsaslarla bələdiyyə seçkiləri keçirilmişdir.

Hələ bu seçkilərə qədər Parlamentin yalnız 1999-cu il payız sessiyası dövründə həmin sahəni tənzimləyən 6 mühüm yeni qanun, o cümlədən "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" və s. qanunlar qəbul olunmuşdur. Ümumiyyətlə isə, ötən 20 il ərzində bələdiyyənin fəaliyyətini tənzimləyən 20-dən çox qanun qəbul olunmuş, bu sahədə dövlət başçısı tərəfindən 30-a yaxın fərman və sərəncam imzalanmış, həmçinin Nazirlər Kabineti 14 qərar qəbul etmişdir.

Yerli özünüidarə orqanı kimi yeni olması nəzərə alınaraq bələdiyyələrin təkmilləşdirilməsi prosesi daim diqqət mərkəzində saxlanılmış, onların əsl özünüidarə qurumuna çevrilməsi, cəmiyyətdə nüfuzunun artması üçün kompleks tədbirlər həyata keçirilmiş, o cümlədən institusional mexanizmlər yaradılmışdır. Bu gün bələdiyyələrin milli assosiasiyaları onların fəaliyyətinin əlaqələndirilməsində, beynəlxalq əlaqələrinin genişləndirilməsində, yaxşı təcrübələrin təşviqində mühüm rol oynayırlar.

Azərbaycanda yerli özünü-

idarəetmə sahəsində həyata keçirilən islahatlar, o cümlədən bələdiyyələrin birləşməsi onların güclənməsinə, imkanlarının artmasına, maliyyə və digər resurslardan daha səmərəli istifadə olunmasına xidmət etmişdir.

Son 15 ildə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda yerli demokratiyanın təşviqi, bələdiyyə institutunun inkişafı istiqamətində ardıcıl addımlar atılmışdır. Həyata keçirilən bir çox dövlət proqramlarında, açıq hökumətin təşviqi, insan hüquqlarının müdafiəsi, korrupsiya ilə mübarizə üzrə milli fəaliyyət planlarında, xüsusilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bələdiyyələrin potensialının gücləndirilməsi və bələdiyyə idarəçiliyi ilə bağlı mühüm prioritetlər, həmçinin bələdiyyələrin inkişafını təmin edən, onların yerli əhali qarşısında məsuliyyətini artıran vacib tədbirlər müəyyən edilmişdir.

Bu illər ərzində özünəməxsus inkişaf yolu keçən yerli özünüidarəetmə orqanları bu gün ölkəmizdə geniş vüsət alan hərtərəfli quruculuq işlərində, o cümlədən sosial, iqtisadi, ekoloji və digər layihələrin reallaşmasında rol oynamağa başlamışlar.

Ədliyyə Nazirliyi də bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına xüsusi diqqət yetirir, onlara mütəmadi metodoloji yardım göstərir, bələdiyyə qulluqçularının peşəkarlığının artırılması, onların qabaqcıl beynəlxalq təcrübələrə yiyələnməsi məqsədilə tədris və maarifləndirmə tədbirləri keçirir.

Bələdiyyələr tərəfindən qanunçuluğa əməl olunmasında onların fəaliyyətinə Nazirlik tərəfindən həyata keçirilən inzibati nəzarət səmərəsini verir. Axırıncı bələdiyyə seçkilərindən sonrakı dövr ərzində inzibati nəzarət qaydasında 311 mindən çox bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmiş, 8 mindən çox aktın qanunamüvafiq olmadığı müəyyən edilərək onlar ləğv edilmiş və ya dəyişdirilmiş, 22.500 hektardan çox qanunsuz verilmiş torpaq sahəsi bələdiyyələrə qaytarılmışdır. Cinayət xarakterli pozuntulara yol vermiş 156 bələdiyyə üzrə materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir.

Biz bir çox Avropa dövlətlərinin 300 il ərzində keçdiyi yolu qısa zaman kəsiyində keçmək istəyindəyik. Qarşıdan gələn növbəti bələdiyyə seçkiləri yerli özünüidarə orqanlarının daha məzmunlu və təkmil formalaşması üçün növbəti imkandır. Biz çalışmalıyıq ki, seçkilər daha ədalətli, obyektiv və şəffaf şəraitdə keçsin və ən layiqli, müasir düşüncəli namizədlər seçilsinlər, elələri ki, fəaliyyətlərini müasir çağırışlara uyğun qura bilsinlər.

***

Qanunvericilik seçkilərin qanunauyğun təşkil edilməsi və keçirilməsində seçki komissiyaları ilə yanaşı müxtəlif dövlət orqanlarının, o cümlədən ədliyyə orqanlarının üzərinə vəzifələr qoyur.

Ədliyyə orqanlarının seçkilərin təşkilində və keçirilməsində fəaliyyəti əsasən seçki prosesinin normativ tənzimlənməsi, sənədlərin təsdiqi, seçicilərin siyahılarının tərtib edilməsində iştirak, müxtəlif ekspertizaların aparılması, seçki komissiyaları ilə birgə penitensiar müəssisələrdə seçkilərin təşkil olunması formasında həyata keçirilir.

***

Vətəndaşların aktiv seçki hüququnun təmin edilməsi sahəsində ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin ən mühümlərindən biri penitensiar müəssisələrdə, yəni istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin seçki hüququnun həyata keçirilməsinin təmin edilməsidir.

Artıq 24 ildir ki, Azərbaycan Respublikasında seçkilərdə həbs edilmiş şəxslərin və məhkumların iştirakını təmin etmək məqsədi ilə Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları ilə səmərəli əməkdaşlıq edilir.

Adıçəkilən kontingentin bu sahədə hüquqlarının müdafiəsi baxımından ölkəmizin qanunvericiliyini qabaqcıl hesab etmək olar. Bir sıra dövlətlərdə, məsələn, Almaniya, Böyük Britaniya, Macarıstan, Ermənistanda, hətta ABŞ-ın bir sıra ştatlarında bu şəxslər seçki hüquqlarından məhrumdurlar.

İsveçrə, İtaliya, Rusiya və s. dövlətlərdə bu hüquqlar müəyyən məhdudiyyətlərlə həyata keçirilir. Bunların bəzilərində bütün kateqoriya məhkumların, bəzilərində isə qəsdən törədilmiş cinayətlərə

görə məhkum olunanların, digərlərində bir sıra ağır cinayətlərə görə məhkum olunanların, o birisilərdə müəyyən müddətdən artıq azadlıqdan məhrum edilənlərin belə hüquqları yoxdur.

Penitensiar müəssisələrdə keçirilən seçkilərdə həbs edilmiş şəxslər və məhkumlarla yanaşı, seçki günü xidmətdə olan əməkdaşlar, habelə müvafiq istintaq təcridxanasının, cəzaçəkmə müəssisəsinin mühafizəsinə cəlb edilmiş müddətli hərbi qulluqçular da aldiyyəti seçki məntəqələrində səsvermədə iştirak edə bilərlər.

Sözügedən kontingent üzrə seçkilər Seçki Məcəlləsinə, habelə Mərkəzi Seçki Komissiyasının müvafiq Təlimatına uyğun həyata keçirilir. Təlimat bir sıra müxtəlif yerlərdə, o cümlədən azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında seçkilərin təşkili məsələlərini nizamlayır.

Həbs edilmiş və cəza çəkən şəxslərin seçkilərdə iştirakının təmin edilməsi üçün keçirilmiş tədbirlər nəticəsində penitensiar müəssisələrdə artıq seçki mədəniyyəti formalaşmış və hazırda müvafiq işlək icra mexanizmləri mövcuddur. Tədbirlər əsasən aşağıdakılardan ibarət olur:

- xüsusi komissiya yaradılır, Mərkəzi və dairə seçki komissiyaları tərəfindən penitensiar müəssisələrində seçki məntəqələri təşkil olunur. Müəssisələr tərəfindən seçicilərin siyahısı tərtib olunub seçki komissiyalarına təqdim olunur, Mərkəzi Seçki Komissiyasının iştirakı ilə seminarlar keçirilir, müəssisələr Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış sənədlərlə, o cümlədən Seçki Məcəlləsi, müxtəlif təlimat, qayda və təbliğat vasitələri ilə təmin olunurlar, seçkilərlə bağlı televiziya, radioda yayımlanan çıxışların həbs edilmiş və cəzaçəkən şəxslər tərəfindən izlənilməsi üçün şərait yaradılır;

- demək olar ki, hər bir müəssisədə seçki məntəqələri yaradılır;

- seçki prosesini müşahidə etmək səlahiyyəti verilmiş şəxslərin, kütləvi informasiya vasitələri nümayəndələrinin, həmçinin müxtəlif missiyaların müəssisələrə girişinin müvafiq daxilolma qaydalarına düzgün əməl etməklə aparılmasına yönəlmiş tədbirlər görülür, bu işin əngəlsiz həyata keçirilməsi üçün aidiyyəti əməkdaşlarla əvvəlcədən maarifləndirmə işi aparılır. Yeri gəlmişkən qeyd edim ki, ötən il penitensiar müəssisələrdə prezident seçkilərini 11 telekanal, habelə 8 digər kütləvi informasiya vasitələri izləmiş və işıqlandırmışlar, prosesi ATƏT və vətəndaş cəmiyyəti nümayəndələri müşahidə etmişlər;

- seçki günü məntəqə seçki komissiyalarının üzvlərinə mandatlarına uyğun olaraq penitensiar müəssisələrin ərazisində rahat, sərbəst fəaliyyət üçün imkan yaradılır.

Məlumat üçün onu da bildirim ki, 2014-cü ildə keçirilən bələdiyyə seçkiləri penitensiar müəssisələrdə uğurla baş tutmuşdur. Bu zaman səs vermək hüququ olan şəxslərin 99,7 faizi ( 21462 nəfər) seçkilərdə iştirak etmişdir.

Növbəti bələdiyyə seçkiləri üçün penitensiar müəssisələrdə və xidmətin tabe qurumlarında 26 seçki məntəqəsinin (14 seçki dairəsi üzrə) yaradılması nəzərdə tutulur. Məntəqə tipli, yəni mühafizə olunmayan (açıq) cəzaçəkmə müəssisələrinin 13-də cəza çəkən məhkumlar ərazi üzrə seçki məntəqələrində səs verəcəklər. Bütövlükdə bu seçkilərdə 20 mindən artıq belə şəxsin səs verəcəyi gözlənilir.

***

Seçki Məcəlləsinə (46.4-cü maddə) əsasən Ədliyyə Nazirliyi seçici siyahılarının formalaşmasında da iştirak edir, təbii ki digər qurumlarla yanaşı. Bu məsələdə ölkə əhalisi barədə dolğun məlumatlar bazasının mövcudluğu cox vacibdir. Belə məlumatlar məcmusunu özündə cəmləyən və Ədliyyə Nazirliyi tərəfindən aparılan Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri xüsusi əhəmiyyət kəsb edir.

Dövlət Reyestrində Ədliyyə, Daxili İşlər, Səhiyyə nazirliklərindən və Dövlət Miqrasiya xidmətindən daxil olan 20-dən çox göstərici üzrə formalaşan və mütəmadi dəqiqləşdirilən informasiya bazası yaradılmışdır. Hazirda orada 7 milyon iyirmi bir minə yaxın 18 yaşına çatmış şəxs, başqa sözlə, seçki hüququna malik olan potensial seçicilər barəsində məlumatlar toplanmış və bu gün Mərkəzi Seçki Komissiyasının "İAMAS"dan (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi) aldığı məlumat-

ların tamlığında Reyestrin rolu az deyil.

***

Sənədlərin təsdiqi sahəsində də əlaqəli fəaliyyətimiz mövcuddur. Belə ki, qanunvericiliyə görə (Seçki Məcəlləsinin 54-cü maddəsi, habelə MSK-nın bələdiyyə seçkilərində xüsusi seçki hesablarının açılması və aparılması qaydası, seçki fondlarına vəsaitlərin daxil olması və xərclənməsi qaydası haqqında Təlimat) MSK-ya təqdim olunmalı bəzi sənədlər notarial qaydada təsdiq edilməlidir. Söhbət namizədliyin irəli sürülməsinin tanınması üçün siyasi partiyanın qeydə alınması barədə şəhadətnamə və siyası partiyanın nizamnaməsindən, habelə imza və möhür nümunələri vərəqələrindən və s. sənədlərdən gedir.

***

Bildiyiniz kimi Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları normativ xarakterli aktlar kimi Ədliyyə Nazirliyinin apardığı Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməlidir. Reyestrin fəaliyyət göstərdiyi 8 ilə yaxın müddət ərzində Mərkəzi Seçki Komissiyasının 99 hüquqi aktı hüquqi ekspertizadan keçirilərək Dövlət Reyestrinə daxil edilmişdir ki, onların da 14-ü bələdiyyə seçkilərinin tənzimlənməsi məsələləri ilə bağlıdır.

***

Seçki Məcəlləsinə əsasən (112-ci maddə) seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) seçicilər, namizədlər, siyasi partiyalar, müşahidəçilər, vəkil edilmiş və s. şəxslər tərəfindən yuxarı seçki komissiyasına, sonra MSK-ya, daha sonra isə apellyasiya instansiyası məhkəməsinə şikayət edilə bilər. Apellyasiya məhkəməsinin qərarından isə Ali Məhkəməyə şikayət nəzərdə tutulub.

Təcrübə göstərir ki, bu cür şikayətlər daha çox parlament seçkiləri ilə bağlı olur. 2014-cü il bələdiyyə seçkiləri ilə bağlı isə apelyasiya instansiya məhkəmələrinə çox az sayda verilmiş iddialarda tələblər əsasən namizədin qeydə alınmaması, şikayətin ilkin olaraq komissiya tərəfindən araşdırılmaması, səsvermənin nəticələrinin qanunsuz hesab edilməsi, pozulmuş seçki hüquqlarının bərpası, seçki məntəqəsi üzvlərinin dəyişdirilməsi, bələdiyyə üzvlüyünə namizədliyin ləğvi və s. bu kimi hallarla bağlı olmuşdur. Bu barədə məndən sonra daha ətraflı məlumat veriləcəkdir.

*Diqqətinizə görə minnətdaram.*

# Ədliyyə Nazirliyində “dəyirmi masa” keçirilib

**Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisi əhalinin mənafelərinə və iqtisadiyyatımızın möhkəmlənməsinə, qeyri-neft sektorunun, azad sahibkarlığın inkişafına xidmət edir. Dövlət başçısı tərəfindən iqtisadi müşavirədə bankların iqtisadi artımın maliyyələşməsində fəal iştirakı vəzifəsi qoyulub.**

Həmin tapşırıqlardan irəli gələn vəzifələr ölkədə fəaliyyət göstərən bankların nümayəndələri ilə oktyabrın 25-də Ədliyyə Nazirliyində "dəyirmi masa"da müzakirə edilib.

Dəyirmi masanın keçirilməsində məqsəd ölkənin sosial-iqtisadi artımında vacib rol oynayan bankların səmərəli fəaliyyəti üçün yaradılan imkanlar, onların hüquqlarının məhkəmə müdafiəsi, kredit ödənişləri ilə bağlı məhkəmə qərarlarının icrası sahəsində görülən işlər, bu sahədə problemlər və onların həlli perspektivləri barədə müzakirələr aparmaq, bankların kredit portfelinin ölkə iqtisadiyyatının real sektorunun maliyyələşməsinə yönəldilməsini təşviq etməkdir.

Tədbirdə Nazirliyin rəhbərliyi və aidiyyəti struktur qurumlarının rəisləri, Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatasının, Azərbaycan Banklar Assosiasiyasının və bank sektorunun rəhbər şəxsləri, bütün instansiya məhkəmələrindən hakimlər iştirak ediblər.

Ədliyyə nazirinin müavini Azər Cəfərov iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunda yüksəlişin banklar tərəfindən pul və kapital dövriyyəsinin tə-




















min edilməsi ilə sıx bağlı olduğunu bildirərək qeyd edib ki, dövlət başçısının son iqtisadi müşavirədə bankların fəaliyyəti ilə bağlı verdiyi tapşırıqları bu sahəyə diqqətin artırılmasının nə dərəcədə önəmli olduğunu bir daha göstərir.

Tədbirdə sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin təkmilləşdirilməsi, notariat orqanları ilə banklar arasında əməkdaşlıq, kredit təşkilatlarının tərəf olduqları işlərin icra vəziyyəti və bu sahədə qarşılıqlı fəaliyyətin perspektivləri, kreditlərin hüquqi təminatında innovativ həllər, kredit pul münasibətləri üzrə ekspertiza icraatında yaranan problemlər, bankların tərəf olduğu işlər üzrə məhkəmə mübahisələrinin xüsusiyyətləri mövzuları ilə çıxışlar edilib.

Bildirilib ki, bu gün ölkədə qeyri-neft sektorunun, azad sahibkarlığın inkişafı üçün ciddi addımlar atılır, bu sahəyə dövlət dəstəyi daim artırılır, sahibkarların hüquqlarının müdafiəsi gücləndirilir, ardıcıl olaraq qanunvericilik və institusional tədbirlər həyata keçirilir.

Bu sahədə Ədliyyə Nazirliyi tərəfindən yaxından iştirak edilərək sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həllinin tezləşdirilməsi məqsədilə qanunvericilik təkmilləşdirilib, kiçik iddialara dair işlərə baxılması proseduru xeyli sadələşdirilib, məhkəmə icraatının elektron qaydada - "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması təmin edilib, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə sahibkarlıqla bağlı mübahisələrə baxan yeni kommersiya və həmçinin inzibati məhkəmələr təsis edilib.

Bununla yanaşı, iddiaçılara, o cümlədən banklara heç yerə getmədən elektron sistem vasitəsilə mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlərin notariusun icra qeydi ilə 24 saat ərzində asan həlli imkanı yaradılıb və bu xidmətdən bəhrələnənlərin sayı sürətlə artmaqdadır.

Bütün bunlar həmçinin, bank fəaliyyətinin müasir çağırışlara uyğun effektiv qurulmasına əlverişli şərait yaradır.

Eyni zamanda, dəyirmi masada məhkəmə qərarlarının icrası sahəsində hazırkı vəziyyət və yeniliklər, icra fəaliyyətini tənzimləyəcək İcra Məcəlləsinin işlənib hazırlandığı, "Elektron icra" informasiya sisteminin tətbiqi qeyd olunub, 3 aprel Fərmanının icrası ilə bağlı, həmçinin icra xidmətində iş həcminin kəskin artaraq bu ilin 9 ayında 776 mini ötməsi ilə əlaqədar məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq praktikanın öyrənildiyi və pilot qaydada tətbiq ediləcəyi barədə məlumat verilib.

Bankların problemli kreditləri ilə bağlı on minlərlə işlərin icraata daxil olmasının iş yükünün əhəmiyyətli dərəcədə artmasına səbəb olduğu qeyd olunub və bu kateqoriya işlərin icrası üzrə Azərbaycan Banklar Assosiasiyası ilə işgüzar əlaqələr qurularaq zəruri tədbirlərin görüldüyü vurğulanıb.

Konstruktiv dialoq və açıq müzakirələrlə keçən tədbirdə Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam edən iqtisadi siyasətin nəticəsi olaraq bu gün Azərbaycan bank sektorunun ölkədə iqtisadiyyatın ən aparıcı sahələrindən birinə çevrildiyini vurğulayıb.

Bildirib ki, problemli kreditlərin həlli ilə bağlı 2019-cu il 28 fevral tarixli Fərman dövlət başçısının vətəndaşlara qayğısının əyani təzahürü olaraq vaxtı keçmiş borcların ödənilməsinə dövlət dəstəyini təmin etməklə əhalinin üzləşdiyi maliyyə itkisini qarşılamağa, sosial rifahının yüksəlməsinə, bankların fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edib.

Z.Nuriyev dövlət başçısının son iqtisadi müşavirəsində biznesin daha aktiv kreditləşməsi ilə bağlı çox konkret vəzifə müəyyən etdiyini qeyd edib, bu sahədə bankların qarşılaşdıqları problemlərdən, təminatsız və girovsuz kreditlərin ödənilməsində, hərracların keçirilməsində yaranan çətinliklərdən danışıb, bankların tərəf olduğu işlər üzrə məhkəmə mübahisələrinin operativ həlli və kredit ödənişləri ilə bağlı məhkəmə qətnamələrinin icrası prosesinin sürətləndirilməsinin vacibliyini vurğulayıb.

Bu sahədə Ədliyyə Nazirliyi ilə səmərəli əməkdaşlığı qeyd edən ABA prezidenti bankların fəaliyyəti ilə bağlı qaldırılan məsələlərə nazirlik tərəfindən hər zaman operativ reaksiya verildiyini bildirib, məhkəmə-hüquq, o cümlədən icra sahəsində görülən işləri qeyd edərək, icra qanunvericiliyinin müasir çağırışlara uyğunlaşdırılması, özəl icra mexanizmlərinin istifadəsi perspektivləri, innovasiyaların tətbiqi, bankların notariat və ekspertiza sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Tədbirdə bank sektorunun təmsilçiləri dinlənilib, maraq doğuran suallara aydınlıq gətirilib. Mövcud və qarşıya çıxan məsələlərin operativ həlli məqsədilə birgə işçi qrupları yaradılıb.

# Ədliyyə Nazirliyində Nəsimi yaradıcılığına həsr olunmuş ədəbi-bədii tədbir keçirilib





**Prezident İlham Əliyev tərəfindən 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunaraq böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi geniş qeyd edilir.**

Bu münasibətlə Ədliyyə Nazirliyi tərəfindən Nəsiminin həyat və yaradıcılığına həsr olunan silsilə tədbirlər təşkil olunur, o cümlədən gənclərə mütaliəyə marağın artırılması məqsədilə "Kitab günü" keçirilib, nazirliyin Penitensiar xidmətinin cəzaçəkmə müəssisələrinin kitabxana fondları Nəsiminin və digər müxtəlif bədii, publisistik və elmi əsərlərdən ibarət 4 minə yaxın kitabla zənginləşdirilib, ədliyyə işçiləri "İmadəddin Nəsimi - 650" adlı geniş kitab sərgisi ilə tanış olublar.

Oktyabrın 17-də Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ədliyyə Akademiyasında Nəsiminin 650 illiyinə həsr olunmuş "Nəsimi yaradıcılığında humanizm" adlı ədəbi-bədii tədbir keçirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının və digər elm və təhsil müəssisələrinin nümayəndələrinin dəvət olunduğu yığıncaqda nazirliyin rəhbər işçiləri və kollektivi, gənc ədliyyə işçiləri, vəkillər, vətəndaş cəmiyyətinin və media təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Aynur Sabitova və Ədliyyə Akademiyasının rəhbəri Elçin Xələfov çıxış edərək 2019-cu ilin "Nəsimi ili" elan olunmasının ölkəmizdə humanitar fikrə, ədəbiyyatımıza dövlətimiz tərəfindən göstərilən böyük diqqət və qayğının bariz təzahürü olduğunu qeyd edib, bu münasibətlə keçirilən silsilə tədbirlərin Nəsimi irsinin öyrənilməsi və təbliği baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, "Nəsimi" qrupunun rəhbəri Səadət Şıxıyeva "Bəşəri dəyərlər kontekstində Nəsimi şəxsiyyəti", AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini Paşa Kərimov "Nəsimi yaradıcılığının tədqiqi tarixi, əlyazmaları və ardıcılları", Azərbaycan Dillər Universitetinin dosenti Ülviyyə Məmmədova "Ədəbiyyat və musiqi Nəsimi işığında" mövzularında əyani təqdimatlar nümayiş etdirilməklə çıxışlar ediblər.

Çıxışlarda Nəsimi irsinin çox cəhətliliyindən, təbliğ etdiyi ümumbəşəri dəyərlərdən, şəxsiyyətin azadlığı və humanizm ideyalarından bəhs olunub, şairin təlqin etdiyi bu dəyərlərin yüzillər boyu insanlara örnək olduğu vurğulanıb. Bildirilib ki, dünya poeziyasına sanballı töhfələr vermiş Nəsiminin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik zəngini irsini, ali bəşəri, humanist-fəlsəfi ideyalarını tədqiq etmək olduqca önəmlidir.

Sonra tədbir bədii hissə ilə davam edib, şairin yaradıcılığına aid şeirlər söylənilib, "Neylərəm" qəzəlinə bəstələnən və digər xalq mahnıları ifa olunub.

# "Avropa Ədliyyə Günü" münasibətilə məhkəmələrdə "açıq qapı" keçirilir










**Avropa Şurası və Avropa Komissiyasının təşəbbüsü ilə 2003-cü ildən etibarən 25 oktyabr - Avropa Ədliyyə Günü qeyd olunur.**

Bu günün keçirilməsində məqsəd vətəndaşların hüquqları və bu hüquqların həyata keçirilməsini təmin edən məhkəmələrin fəaliyyəti barədə məlumatlılığını artırmaq, ədalət mühakiməsinin əlçatanlığını təmin etmək, eləcə də Avropa Şurasının və Avropa Komissiyasının ədliyyə sahəsində işini təşviq etməkdən ibarətdir.

Üzv-ölkələr tərəfindən "Avropa Ədliyyə Günü" münasibətilə məhkəmələrdə ictimaiyyət üçün "açıq qapı" günləri keçirilir.

Bununla bağlı Azərbaycan məhkəmələrində oktyabrın 25-dən noyabrın 30-dək "açıq qapı" günləri elan olunaraq vətəndaşların ədalət mühakiməsinin həyata keçirilməsi sistemi, məhkəmə fəaliyyəti ilə yaxından tanışlığı təşkil olunub.

Ədliyyə Akademiyası tərəfindən ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə uğur qazanaraq icbari təlim keçən namizədlər üçün Bakı Apellyasiya Məhkəməsində maarifləndirici tədbir keçirilib. Tədbirdə "25 oktyabr - Avropa Ədliyyə Günü". Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətləri və standartlarının anlayışı və tətbiqi", "İnsan hüquqlarının müdafiəsi sahəsində milli və beynəlxalq mexanizmlər", "Azərbaycan Respublikasında aparılan məhkəmə-hüquq islahatlarının müasir mərhələsi" kimi

mövzular üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

İştirakçılar həmçinin, Apellyasiya Məhkəməsinin fəaliyyəti ilə tanış olublar. Eyni zamanda, Avropa Ədliyyə Günü münasibətilə Bakı Dövlət Universiteti ilə birgə Yasamal Rayon Məhkəməsində IV kurs hüquq fakültəsinin tələbələrinin, Ədliyyə Nazirliyinin könüllülərinin, Vəkillər Kollegiyasının üzvlərinin iştirakı ilə səhnələşdirilmiş məhkəmə prosesi keçirilib.

Tədbirlər çərçivəsində Şəki Apellyasiya, İnzibati-İqtisadi, Ağır Cinayətlər və Rayon məhkəmələri tərəfindən rayonda fəaliyyət göstərən təhsil müəssisələrinin tələbələri ilə görüş keçirilib, Avropa Ədliyyə Gününün yaranma tarixi və mahiyyəti, ölkənin məhkəmə sistemi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının, elektron sistemlərin və digər yeniliklərin




tətbiqi barədə ətraflı məlumat verilib, tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Tələbələr həmçinin, müasir standartlara cavab verən Şəki Məhkəmə Kompleksi, məhkəmələrin fəaliyyəti və iş şəraiti ilə tanış olublar.

Qeyd olunmalıdır ki, ötən il Avropa Şurası tərəfindən ölkəmizin "Avropa Ədliyyə Günü"-nü ən fəal keçirən 4 dövlətdən biri olduğu təqdirəlayiq hal kimi dəyərləndirilib.

"Avropa Ədliyyə Günü" ərəfəsində ənənəvi olaraq Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatlandırma mərasimi keçirilir. Bu il Hollandiya, İspaniya, Lüksemburq və Sloveniyanın təqdim etdikləri layihələr həmin mükafatın qalibləri olub və bununla əlaqədar CEPEJ-in prezidenti, azərbaycanlı hakim Ramin Qurbanovun sədrliyi ilə 25 oktyabr tarixində Norveçin Oslo şəhərində təqdimetmə mərasimi keçirilib.

2017-ci ildə Azərbaycan bu müsabiqədə Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsi ilə iştirak edib və həmin layihə məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək qalib gəlmiş 4 layihə sırasına daxil edilib və ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilinərək təntənəli surətdə Azərbaycan tərəfinə təqdim olunub.

# İctimai Komitənin üzvləri Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşüblər

**Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən vətəndaş cəmiyyətinin inkişafına, dövlət orqanlarının fəaliyyətində ictimai iştirakçılığın geniş tətbiqinə böyük önəm verilir. Ölkəmizin uğurlu inkişafının təminatında ictimai nəzarətin müstəsna əhəmiyyətini hər zaman xüsusilə qeyd edən dövlət başçısı həyata keçirilən tədbirlərdə, dövlət idarəetməsində ictimaiyyəti daha fəal olmağa çağırır.**

Bu məqsədlə 2006-cı ildən ədliyyə naziri yanında tərkibi nüfuzlu hüquq müdafiəçilərindən və qeyri-hökumət təşkilatlarından ibarət formalaşdırılan İctimai Komitə uğurla fəaliyyət göstərir. Komitə ədliyyə sahəsində şəffaflığın, ictimai nəzarət və açıq hökumət prinsiplərinin təşviqinə, eləcə də vətəndaş cəmiyyəti və hüquq-mühafizə or-

qanları arasında qarşılıqlı dialoq və əməkdaşlığın genişləndirilməsinə mühüm töhfələr verir.

Bu məqsədlə İctimai Komitə tərəfindən ictimai iştirakçılığın gücləndirilməsi üzrə tədbirlər çərçivəsində Komitə üzvlərinin Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşü olub.



Görüşdə Vəkillər Kollegiyasının sədri Anar Bağırov son illər Azərbaycanda vəkillik institutunun inkişafı, o cümlədən Vəkillər Kollegiyasının infrastrukturunun müasirləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni vəkil qurumlarının, regional vəkil bürolarının yaradılması, vəkillərin fəaliyyətində müasir innovativ texnologiyaların tətbiqi, elektron hüquqi xidmətlərin göstərilməsinin genişləndirilməsi, şəffaf müsabiqələr əsasında yeni nəsil vəkillərin yetişdirilməsi üzrə ardıcıl tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Ədliyyə Nazirliyinin məsul əməkdaşlarının qatıldığı tədbirdə Vəkillər Kollegiyası ilə İctimai Komitə arasında qarşılıqlı fəaliyyətə dair maraq doğuran məsələlər üzrə faydalı fikir mübadiləsi aparılıb, Komitə üzvləri tərəfindən vəkillik fəaliyyətinin səmərəsinin daha da artırılması, bu sahədə ictimai nəzarətin təmin olunması, vəkillərin etikası və onların təlimi, əhalinin az təminatlı təbəqəsinə pulsuz hüquqi yardımın əhatə dairəsinin genişləndirilməsi ilə bağlı bir sıra təklif və tövsiyələr irəli sürülüb.

# Azərbaycan notariatı xarici həmkarların diqqət mərkəzindədir






**Notariat fəaliyyətinin inkişaf səviyyəsi, bu sahədə innovativ həllərin tətbiqi nəticəsində xidmətlərin yeni üslubda təqdim edilməsi xarici ölkələrin notariat qurumlarında böyük maraq doğurur, müxtəlif nümayəndə heyətləri Azərbaycan təcrübəsini öyrənmək məqsədilə mütəmadi olaraq ölkəmizdə təşkil olunan seminarlarda iştirak edirlər. Növbəti belə seminarlar Rusiya notariusları üçün keçirilib.**

Azərbaycan nümunəsində notariat inkişafının tendensiyaları" adlı seminarlarda əlçatanlıq, operativlik, distantlıq standartlarına uyğun təkmilləşməsi nəticəsində mülki hüquqların daha etibarlı qorunmasını təmin edən notariat xidmətləri barədə ətraflə məlumat verilir.

Seminarlarda müasir üsullar, o cümlədən videoyazı vasitəsilə göstərilən notariat xidmətləri, mobil notariatın tətbiqi, "Elektron notariat" informasiya sistemi vasitəsilə daşınmaz əmlaka dair mülkiyyət hüquqlarının dövlət qeydiy-

yatının elektron qaydada həyata keçirilməsi və müvafiq çıxarışların vətəndaşlara verilməsi, müqavilələr üzrə öhdəliklərin notariusun icra qeydi əsasında sadələşdirilmiş elektron qaydada həyata keçirilməsi imkanları xüsusi işıqlandırılıb.

Qonaqlar üçün həmçinin, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün zəruri avadanlıqla təchiz olunan informasiya sisteminə birbaşa çıxışı olan səyyar çantalar da nümayiş etdirilib.

Seminar çərçivəsində rusiyalı notariuslara Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində elektron servislər, həmçinin informasiya sistemlərinin inteqrasiyası nəticəsində məlumatların real vaxt rejimində əldə olunması mexanizmi əyani təqdim edilib.

Söhbət zamanı notariat sahəsində qarşılıqlı fəaliyyətin perspektivləri və maraq doğuran məsələlər müzakirə olunub.

# Ədliyyə Nazirliyi gənclər arasında ailə dəyərlərinə dair maarifləndirici tədbir keçirib






**Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinin və yerli icra hakimiyyətinin nümayəndələri ilə birgə gənclər arasında ailə dəyərləri haqqında və erkən nikahlara qarşı profilaktik maarifləndirici tədbir keçirilib.**

Tədbirdə Ədliyyə və Səhiyyə nazirliklərinin, Ağsaqqallar Şurasının nümayəndələri, QHT-lər, psixoloqlar, müharibə iştirakçıları, şəhid ailələri, uzun ömür sürmüş nümunəvi ailələr və gənclər iştirak ediblər.

Tədbirdə çıxış edən Ədliyyə Nazirliyinin rəsmiləri Reyhanə Kərimova və Səbinə Salmanova Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın ailə dəyərlərinə verdiyi yüksək qiyməti, cəmiyyətin əsas özəyi olan hər bir ailəyə göstərdiyi diqqət və qayğını xüsusilə vurğulayaraq ailə dəyərlərinin əhəmiyyəti, habelə erkən nikahların törətdiyi fəsadlar haqqında geniş məlumat veriblər.

Həmçinin ədliyyə naziri yanında İctimai Komitənin üzvü, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, "Təmiz Dünya" Qadınlara Yardım ictimai birliyinin sədri Mehriban Zeynalova, Mirzə Ələkbər Sabir fondunun təsisçisi və direktoru Sevda Tahirli maraqlı təqdimatlarla çıxış edərək gənclərə ailə dəyərlərindən və erkən nikahlar zamanı üzləşilən problemlərdən bəhs ediblər.

Bununla yanaşı, auditoriyaya mövzu ətrafında hazırlanmış slaydlar nümayiş olunub, uzunömürlü ailələrin üzvləri keçdikləri ömür-gün yolu barədə söhbət açaraq gənclərə öz tövsiyələrini veriblər.

Sonda gəncləri maraqlandıran sualları cavablandırılıb.

# Ədliyyə Nazirliyində vətəndaş cəmiyyəti üçün təlim keçirilib





**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən Bakı şəhərində vətəndaş cəmiyyəti nümayəndələrinə "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə qeyri-hökumət təşkilatlarının öhdəlikləri" adlı təlim keçirilib.**

Tədbirdə respublikamızın hərtərəfli inkişafı, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən mütərəqqi tədbirlər və əldə olunan nailiyyətlər barədə məlumat verilib, ölkənin demokratikləşməsi prosesində qeyri-hökumət təşkilatlarının rolu, dövlət orqanları ilə QHT sektorunun sıx əməkdaşlığı nəticəsində vətəndaş cəmiyyətinin davamlı inkişafı qeyd olunub.

Ədliyyə Nazirliyinin məsul əməkdaşlarının, ekspert qismində ədliyyə naziri yanında İctimai Komitənin üzvü Əlimməmməd Nuriyevin və digər QHT nümayəndələrinin iştirak etdiyi tədbirdə qeyri-hökumət təşkilatının daxili nəzarət sisteminin hazırlanması, məsul şəxsin və daxili auditorun təyin edilməsi, müştərilərin eyniləşdirilməsi, verifikasiyası və s. mövzularda mühazirələr oxunub, təqdimatlar keçirilib.

Oxşar tədbirlər Gəncə, Şirvan, Quba və Qəbələ şəhərlərində də təşkil olunub.

# Sahibkarlara əmlakın qeydiyyatına dair təqdimat keçirilib

**Oktyabrın 11-də İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Daşınmaz Əmlakın alqı-satqısı sahəsində tətbiq olunan yeniliklər" mövzusuna həsr edilən təqdimat keçirilib.**

Daşınmaz əmlakın alqı-satqısı üzrə aparılan islahatlar barədə sahibkarlıq subyektlərinin daha geniş məlumatlandırılması üçün ictimai birliklər, biznes assosiasiyaları, eyni zamanda, hüquq və konsaltinq şirkətləri üçün "Notariat xidmətlərinin avtomatlaşdırılması nəticəsində onlara əlçatanlığın asanlaşdırılması və operativliyin təmin edilməsi", "Daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində aparılan islahatlar" mövzularında təqdimatlar edilib.

Prezident İlham Əliyevin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Fərmana əsasən vətəndaşlar üçün əmlakın qeydiyyatı üzrə daha operativ və səmərəli imkanlar yaradıldığı vurğulanıb.

Tədbiri açan Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin rəis müavini Mehman Soltanov, İnformasiya kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağa-Kərim Səmədzadə və baş idarənin Nəzarət-analitik iş üzrə qrupunun rəhbəri Leyla Bərxudarzadə məlumat veriblər ki, nazirlik tərəfindən idarə olunan 14 informasiya sistemi, bu sistemlərin 20-dən çox dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası xidmətləri, o cümlədən daşınmaz əmlakın alqı-satqısı ilə müqavilə rəsmiləşdirilməsi üzrə, "bir pəncərə" prinsipi əsasında, əmlakın yerləşdiyi yerdən asılı olmayaraq notariusun köməyi ilə həyata keçirilir.



Müqavilənin təsdiq edilməsi üçün tələb olunan müxtəlif sənədlər notarius tərəfindən informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə olunur.

Aparılmış islahatlar, o cümlədən informasiya sistemlərinin inteqrasiyası, sənədlərin rəqəmsallaşdırılması, məlumatların elektron bazada toplanılması nəticəsində daşınmaz əmlakın əldə edilməsi prosedurları xeyli asanlaşıb, müddət minimuma endirilib. Əlavə olaraq, mülkiyyət hüququ haqqında sənədi də artıq elektron qaydada əldə etmək mümkündür. Hətta daşınmaz əmlakın dövlət reyestrindən çıxarış mobil telefondan göndərilən mesajla istənilən vaxt və yerdə alına bilər.

Bu sahədə daha bir yenilik bütün informasiya sistemlərinə çıxışı olan səyyar çantaya malik notariusu dəvət etməklə səhhəti, iş şəraiti və ya hər hansı digər səbəbdən notariat ofisinə müraciət etmək imkanı olmayan şəxslər üçün müqavilənin yerində rəsmiləşdirilməsi imkanıdır. Həmin çantada yerləşdirilən avadanlıqlar vaxt məhdudiyyəti olmadan səyyar xidmətlərin göstərilməsinə imkan verir. Bundan başqa sənədin üzərində əks olunan QR-kod vasitəsilə sənədin həqiqiliyini yoxlamaq mümkündür.

20-dən çox qurum nümayəndələrinin qatıldığı tədbirdə mövzu ətrafında digər çıxışlar edilib, müzakirələr aparılıb.

# Yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir





**Azərbaycan və Litva yerli özünüidarəetmə orqanları arasında əlaqələrin genişləndirilməsi məqsədilə ölkəmizdə səfərdə olan Litva Respublikasının Druskininkay şəhərinin meri Riçardas Malinauskasın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Ədliyyə Akademiyasında görüş keçirilib.**

Bələdiyyələrlə İş Mərkəzinin, Ədliyyə Akademiyasının nümayəndələri, bələdiyyələrin milli assosiasiyalarının sədrləri,

Bakı və Abşeron bələdiyyələrinin üzvlərinin iştirakı ilə keçirilən görüşün əsas məqsədi yerli özünüidarəetmə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması olub.

Tədbirdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəçiliyinin təkmilləşdirilməsi üzrə aparılan mütərəqqi islahatlar, o cümlədən yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, ölkə həyatının müxtəlif sahələrində bələdiyyələrin iştirakının aktivləşdirilməsinin əhəmiyyəti vurğulanıb. İki ölkə arasında yerli özünüidarəetmə sahəsində əlaqələrin inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin səmərəliliyi diqqətə çatdırılıb.

Görüşdə Druskininkay şəhərinin meri Litva Respublikasında yerli özünüidarəetmə haqqında geniş məruzə ilə çıxış edərək, bu sahədə tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

# Strasburqda məhkumların sosial reinteqrasiyasına və probasiya sahəsində əməkdaşlığa dair çoxtərəfli görüş keçirilib





**Avropa Şurasının (AŞ) İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun təşkilatçılığı Strasburqda "Məhkumların sosial reinteqrasiyası, azadlığa çıxdıqdan sonra təkrar cinayət törətmə hallarının azaldılması probasiya və əlaqəli qurumlarla əməkdaşlıq" mövzusunda çoxtərəfli görüş keçirilib.**

Avropa Şurasının 20-dən çox üzv dövlətinin nümayəndələrinin və qurumun məsul şəxslərinin qatıldığı tədbirdə Azərbaycanın Ədliyyə Nazirliyi Probasiya Xidmətinin Elektron Monitorinq İdarəsinin rəisi Elmin Həsənov iştirak edib.

Görüşdə Avropa Şurasının məhkumların sosial reinteqrasiyası ilə bağlı standartları, həbsxana rejimləri, davranış qaydaları, müxtəlif kateqoriyalı məhkumlar üçün reinteqrasiya proqramları, məhkumların şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı ictimai dəstək ilə nəzarət - probasiya və əlaqəli qurumlarla əməkdaşlıq, radikallaşmanın aşkarlanması, qarşısının alınması və onunla mübarizə, yetkinlik yaşına çatmayan məhkumların sosial reinteqrasiyası, bu sahədə işçi heyətin rolu məsələləri müzakirə olunub.

Çıxış edənlər məhkumların həbsxanada və probasiya nəzarətində olarkən faydalı əməyə, o cümlədən ictimai işlər cəzasının icrası zamanı peşəsinə uyğun işə cəlb edilməsi, həmçinin məhkumlarla davranış zamanı Avropa Penitensiar Qaydalarının və Avropa Şurasının "Probasiya qaydaları haqqında" Tövsiyəsinin nəzərə alınmasını diqqətə çatdırıblar.

Eyni zamanda alternativ cəzaların icrasının cəmiyyətdə effektivliyi və məhkumların cəza çəkdiyi dövrdə yeni cinayətlərin törədilməsinin qarşısının alınmasında elektron monitorinqin rolu vurğulanıb.

Tədbir çərçivəsində Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun proqram məsləhətçisi ilə iştirakçı dövlətlərin nümayəndələrinin işçi görüşləri keçirilib.

Görüşlərdə Azərbaycanda həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatları və

tətbiq olunan yeniliklər barədə məlumat verilib, ölkə Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10.02.2017-ci il tarixli Sərəncamı, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının müstəsna əhəmiyyəti vurğulanıb. Ölkəmizdə Probasiya xidmətinin fəaliyyətinin təşkili, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi diqqətə çatdırılıb, Azərbaycanın bu sahədə təcrübəsinə maraq göstərilib.

# Ədliyyə Akademiyasında

## ◆Hakimlər üçün tədris tədbirləri

**Cari ilin oktyabr ayında Ədliyyə Akademiyasında hakimlər üçün "Məhkəmə qərarlarının tərtib edilməsinin xüsusiyyətləri" mövzusunda ixtisasartırma kursu keçirilib.**



31 hakimin iştirak etdiyi tədris kursunda Ali Məhkəmənin, Bakı və Şirvan Apellyasiya Məhkəmələrinin hakimləri tərəfindən həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatlara baxılmasına və bu barədə məhkəmə qərarlarının əsaslandırılmasına dair tələblər, ittiham hökmlərinin tərtibi, təyin edilmiş cəza növü və həddinin hökmdə əsaslandırılması zamanı nəzərə alınmalı olan tələblər, birinci instansiya məhkəmələrində baxılmış mülki işlər üzrə məhkəmə aktlarının tərtibində yol verilən xarakterik nöqsanlar, inzibati işlər üzrə məhkəmə qərarlarının tərtibi xüsusiyyətləri kimi məsələlər ilə əlaqədar mövzular tədris edilib.

***

**Həmçinin hakimlər üçün "Mülki qanunvericiliyin tətbiqinin aktual məsələləri" mövzusunda təlim keçirilib.**

35 nəfər iştirakçının cəlb edildiyi təlimdə mövzular Bakı Apellyasiya Məhkəməsinin hakimləri tərəfindən tədris edilib.

Kursda əsassız varlanma - mülki hüququn və vəzifələrin əmələ gəlməsinin əsası kimi, torpaq sahələlərinin mülkiyyətə və icarəyə verilməsinin xüsusiyyətləri, ziyan vurma nəticəsində əmələ gələn öhdəliklər üzrə işlərə məhkəmələrdə baxılmasının xüsusiyyətləri, mənəvi zərər və onun ödənilməsinin xüsusiyyətləri kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb.

***

**Daha bir təlim kursu isə "Korrupsiyaya qarşı mübarizədə milli və beynəlxalq mexanizmlər" mövzusunda keçirilib.**

21 hakimin iştirak etdiyi təlimdə mövzular Ali Məhkəmənin hakimi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin nümayəndələri tərəfindən tədris edilib.

Kursda cinayətlərin tövsifi və həmin cinayətlərə məhkəmədə baxılmasının xüsusiyyətləri, korrupsiyaya qarşı mübarizədə beynəlxalq konvensiyaların əhəmiyyəti, korrupsiyaya qarşı mübarizədə preventiv tədbirlərin əhəmiyyəti kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb.

Eyni zamanda hakimlər üçün Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi ilə tanışlıq tədbiri həyata keçirilib, elektron qolbağın istifadə qaydaları əyani şəkildə göstərilib.

## İcra məmurları üçün ixtisasartırma kursları



**Ədliyyə Akademiyasında icra məmurları üçün davamlı ixtisasartırma kursları və təlimlər keçirilir.**

Oktyabr ayında "Alimentin tutulması, uşaqla ünsiyyətdə olma və uşağın alınıb-verilməsi tələblərinə dair məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi" mövzusunda keçirilmiş ixtisasartırma kursunda 15 icra məmuru iştirak edib.

Təlimdə "Uşağın alınıb-verilməsi və uşaqla ünsiyyət tələbinə dair icra sənədlərinin icrası zamanı uşağın mənafeyinə zərər vurmadan icranın təmin ounması", "Alimentin tutulması, uşaqla ünsiyyətdə olma və uşağın alınıb-verilməsi tələblərinə dair məhkəmə qərarlarının icrası zamanı icra məmurları tərəfindən yol verilən xarakterik nöqsanlar və onların aradan qaldırılması üzrə görülən tədbirlər","Alimentin tutulmasına dair icra sənədlərinin icrası qaydası"- mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

***

**Həmçinin "Ünsiyyət psixologiyası, konfliktli vəziyyətlərin idarə olunması və stressin götürülməsi" mövzusunda təlim keçirilib.**

20 nəfər icra məmurunun qatıldığı kursda "Ünsiyyətin növləri, ünsiyyət zamanı tərəf müqabilinə təsir etmənin əhəmiyyəti", "Şəxsiyyətinin psixoloji tipologiyası", "İcra məmurları tərəfindən icra hərəkətləri aparılan zaman vətəndaşlarla yaranan problemlər və onların həlli yolları" və"Ünsiyyət psixologiyası, konfliktologiyanın yaranma səbəbləri və profilaktikası" mövzuları üzrə mühazirələr tədris olunub.

Mövzular üzrə Ədliyyə Nazirliyi Katibliyinin, Tibb baş idarəsinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının nümayəndələri tərəfindən çıxış edilib.

***

**Akademiyada icra məmurları üçün "Elektron icra sistemindən istifadə qaydaları" mövzusunda iki təlim keçirilib.**

20-dən çox icra məmurunun iştirak etdiyi kursda "Qiymətləndirmə və hərracın keçirilməsi", "Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması", "Elektron icra sisteminin tətbiqi qaydaları" mövzuları üzrə mühazirələr oxunub.

***

**"Hüquqi və fiziki şəxslərin borclu olduğu icra sənədləri üzrə məcburi icra tədbirləri" mövzusunda keçirilmiş təlimdə isə 22 nəfər icra məmuru iştirak edib.**

Təlimdə " Hüquqi şəxslərin borclu olduğu icra sənədlərinin icrası xüsusiyyətləri", "Tələbin borcluda aşkar edilmiş əmlaklara yönləndirilməsi ardıcıllığı", "Borclunun inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi əsasları" mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

## Bələdiyyə üzvləri və qulluqçuları üçün təlimlər

**Bakı şəhəri ərazisində fəaliyyət göstərən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə Ədliyyə Akademiyasında tədris kursları keçirilib.**

Ümumilikdə 33 nəfər dinləyicinin qatıldığı kurslarda "Çoxmənzilli binaların idarə edilməsi sahəsində bələdiyyələrin rolu", "Yerli turizmin, eləcə də tibbi turizmin təşkilində bələdiyyələrin iştirakı", Sahibkarlığın inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında bələdiyyələrin iştirakı", "Vergi uçotunun qurulması,

yerli vergi və ödənişlərin nağdsiz ödəmə vasitəsilə həyata keçirilməsi", "Beynəlxalq təcrübəyə əsasən insan hüquqlarının qorunmasında bələdiyyələrin rolu" kimi mühazirələr iştirakçıların diqqətinə çatdırılıb.

***

**Həmçinin Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzinin birgə təşkilatçılığı ilə İmişli rayonunda bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursu təşkil edilib.**

İmişli regional ədliyyə idarəsində keçirilən təlimdə 50-dək bələdiyyə nümayəndəsi iştirak edib.

Təlimdə "Bələdiyyə mülkiyyəti, əmlak təminatı və mülkiyyət toxunulmazlığı. Bələdiyyə mülkiyyətinə dair Avropa Şurasının sənədləri", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə media münasibətlərinin hüquqi tənzimlənməsi", "Bələdiyyələrdə arxiv işinin təşkili" mövzuları üzrə mühazirələr dinlənilib.



***

**Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Bələdiyyələrlə iş mərkəzinin dəstəyi və İmişli regional ədliyyə idarəsinin təşkilatçılığı ilə İmişli regional ədliyyə idarəsində növbəti seminar keçirilib.**

Seminarda İmişli regional ədliyyə idarəsinin ərazi yurisdiksiyasına aid olan İmişli, Beyləqan, Saatlı və Füzul rayonlarından bələdiyyə sədrləri və qulluqçuları iştirak ediblər.

Tədbirdə "Cənubi Qafqazda Yerli Özünüidarəetmə" proqramı çərçivəsində GİZ ilə Bələdiyyələrlə iş mərkəzinin birgə hazırladığı "Sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı ilə bağlı qanunvericiliyə dair sənədlər toplusu", "Bələdiyyələrdə arxiv işinin təşkilinə dair normativ hüquqi aktlar toplusu", "Metodik sənədlər toplusu", "Yerli büdcənin tərtibi" metodik vəsaitlər iştirakçılara paylanılıb, eyni zamanda digər metodik tövsiyələr barədə bələdiyyə təmsilçiləri məlumatlandırılıblar.

Sonda regional ədliyyə idarəsinin rəisi Hakim Məmmədov görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

# Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində

## ◆ Nazirliyin kollektivi rəsm və əl işlərinin sərgisində iştirak edib

**Naxçıvan Muxtar Respublikası rəhbərliyinin qayğısı sayəsində muxtar respublikada bütün sahələrdə olduğu kimi, sağlamlıq imkanları məhdud şəxslərin və qadınların məşğulluğunun təmin olunması diqqətdə saxlanılır. Onların ictimai-sosial həyatda iştirakı, istedadlarının üzə çıxarılması və məşğulluqlarının təmin edilməsi istiqamətində muxtar respublikada ardıcıl tədbirlər görülür.**

Bu da onların özünüməşğulluğunu təmin etməklə yanaşı, həm də xalqımızın milli dəyərlərinin və adət-ənənələrinin qorunub saxlanılmasında mühüm əhəmiyyət daşıyır.

Oktyabrın 4-də Naxçıvan MR Ədliyyə Nazirliyinin kollektivi Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satı-

şında iştirak ediblər.

Sərgi-satışda nümayiş olunan əl işləri barədə məlumat verilib ki, ümumilikdə 305 istedadlı qadının 3926 əl işi nümayiş olunur. Sərgidə yağlı boya ilə işlənən təbiət mənzərələri, xalçalar, milli geyimlər, toxuculuq nümunələri, dekorativ tətbiqi sənət nümunələri maraqla qarşılanıb. Burada həmçinin, texniki yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvlərinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, tam orta məktəblərin şagirdlərinin, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınların da əl işləri sərgilənir. Muxtar respublika qadınları ictimai həyatda fəal iştirak edir, sosial-iqtisadi, elmi və mədəni inkişafa öz töhfələrini verirlər. Xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara da diqqət göstərilir.



Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev və nazirliyin kollektivi özləri üçün hədiyyəlik əl işləri alıb, sərgi-satışın iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

## ◆Tələbələr ədliyyə orqanlarında təcrübə kursu keçiblər

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 03 aprel 2019-cu il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamı ilə bağlı Ədliyyə Nazirliyinin üzərinə düşən vəzifələrə uyğun olaraq 30-31 oktyabr tarixlərində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisasının ikinci kurs tələbələri ədliyyə orqanlarında təcrübə keçiblər.

İki günlük təcrübə müddətində tələbələr bu qurumların iş fəaliyyəti ilə tanış olub, gündəlik iş prosesində iştirak edib, maraqlandıqları sahələr barədə ətraflı məlumat alıblar.

Hüquqşünaslıq ixtisası üzrə tələbələr Penitensiar Xidmətdə olarkən onlara xidmətin əsas fəaliyyət istiqamətləri barədə məlumat verilib. Qeyd olunub ki, xidmətin vəzifələri müəyyən müddətdə azadlıqdan məhrum etmə cəzasını icra etmək, məhkumların islah işini, onların mühafizə və müşayiətini, həbs edilmiş şəxslərin saxlanılması, məhkumların reabilitasiyası və sosial adaptasiyasına köməklik göstərmək, habelə hüquqi maarifləndirmə göstərməkdən ibarətdir. Cəzaçəkmə müəssisəsinin rejim növləri barədə də tələbələrə ətraflı məlumat verilib.

Məhkəmə Ekspertizası Mərkəzində tələbələr praktiki olaraq ballistik ekspertizaların keçirilməsini müşahidə edib, xətşünaslıq üzrə aparılan ekspertiza və saxta sənədlərin və pul nişanlarının aşkar edilməsi ilə tanış olublar. Daktiloskopiya sahəsində ekspert kimyəvi tozlarla laboratoriya şəraitində müxtəlif əşyalar üzərindən izlərin aşkarlanaraq götürülməsinə dair müxtəlif təcrübəvi işlər aparılması və yeni təcrübəvi metodlarla bağlı məlumat verib. Fiziki-kimyəvi laboratoriyada narkotik vasitələrin tədqiqatların aparılması və onların tədqiqi üçün nəzərdə tutulan avadanlıqla tanışlıq olub. Tələbələr digər ekspertiza fəaliyyətləri barədə də ətraflı

məlumatlandırılıblar.

Tələbələr nazirliyin İcra və probasiya şöbəsində probasiya sahəsi üzrə müasir elektron izlənmə nəzarət sistemi ilə tanış olublar. Elektron nəzarət sisteminin istifadə qaydaları izah edilib, hazırda məhkumlar üzərində tətbiq olunan elektron nəzarət vasitəsi ilə tanış ediliblər. Sonra Naxçıvan Şəhər İcra və Probasiya Şöbəsinin iş prinsipləri ilə tanış olaraq iş prosesində iştirak ediblər. İcra işlərinin qeydiyyatının aparılması, həyata keçirilən məcburi icra tədbirləri barədə tələbələrə geniş məlumat verilib, yeni istifadəyə verilən "Elektron icra" informasiya sisteminin xüsusiyyətləri barədə qeyd edilib.

Dövlət və bələdiyyə idarəetməsinin tələbələri nazirliyin Bələdiyyələrlə iş mərkəzində olarkən onlara mərkəzin fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib və qeyd olunub ki, mərkəzdə bələdiyyə fəaliyyətinə inzibati nəzarət qaydasında daxil olan bələdiyyə aktlarının qanunvericiliyin tələblərinə uyğunluğu araşdırılır. Bələdiyyələrə metodiki köməkliklər göstərilir, onlar bələdiyyə qanunvericiliyinə aid hüquqi ədəbiyyatlarla təmin edilirlər. Tələbələr bələdiyyələrdən daxil olmuş aktlarla və mərkəzin arxivi ilə tanış olub, bələdiyyə aktlarının araşdırılması işində iştirak ediblər.

Əliabad bələdiyyəsində olarkən tələbələr gündəlik iş prosesi ilə, eləcə də daxil olan sənədlərin qeydiyyatı, işlənmə qaydası, rəsmiləşdirilməsi və göndərilməsi qaydaları ilə tanış olublar. Vətəndaşlardan daxil olmuş müraciətlərin araşdırılması, bələdiyyə vergilərinin





rəsmiləşdirilməsi sənədləri ilə işləmə qaydasını öyrəniblər. Hər iki ixtisas üzrə tələbələr nazirliyin kitabxanası ilə tanış olublar.

İki günlük təcrübənin sonunda nazirlikdə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası ədliyyə Nazirinin müavini Emin Səfərov çıxış edərək Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisaslarında təhsil alan tələbələrin nazirliyin himayəsinə verildiyini qeyd edib, bu istiqamətdə ötən müddətdə nazirlik tərəfindən görülmüş işlərdən danışıb.

Sonra nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, ekspert qrupunun rəhbəri Səttar Zamanov "İdeyadan başlanğıca" layihəsi üzrə nazirlikdə yaradılan "İnnovativ layihələrin təşviqi mərkəzi" və ədliyyə orqanlarında "Ədliyyə könüllüləri" proqramı məqsədilə tələbələrlə birgə həyata keçirilən istiqamətverici layihələr barədə, eləcə də təqdimatı keçirilən "startup.nakhchivan.az" internet portalı haqqında ətraflı məlumat verib.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb. Qeyd olunub ki, bu cür tədbirlərin keçirilməsi gələcəkdə tələbələrin ədliyyə sahəsi üzrə nəzəri biliklərinin praktiki şəkildə mənimsənilməsində müsbət təsirini göstərəcəkdir.

# Bələdiyyələrdə kargüzarlıq işinin təşkili

Azərbaycan Respublikasında bələdiyyələrin formalaşmasından 20 il keçir. Ötən dövr ərzində bələdiyyələr öz işlərini xeyli təkmilləşdirmiş və yerli özünüidarəetmədə yaxşı təcrübə qazanmışlar. Bir neçə il öncə bələdiyyələr üçün problemli görünən işlər artıq qanunvericiliyin tələbləri çərçivəsində qurulmuşdur. Bəzi bələdiyyələrin yerli özünüidarə sahəsində müsbət təcrübələri hazırda başqa bələdiyyələr arasında yayılır və tətbiq edilir.

Bələdiyyələrdə kargüzarlıq işinin təşkili, onun qanunvericiliyə uyğun həyata keçirilməsi də olduqca böyük önəm daşıyır. Kargüzarlığın düzgün qurulması idarəetmədə vacib amillərdən biridir. Bu sahədə işin dəqiq, müasir üsul və vasitələrlə aparılması zəruridir.

Hüquqi və demokratik dövlət quruculuğu şəraitində vətəndaşların yaşadıqları ərazidəki yerli özünüidarə orqanlarına təkliflər, ərizə və şikayətlərlə müraciət etməsi insan və vətəndaş hüquqlarının həyata keçirilməsində və qorunmasında mühüm vasitədir.

Azərbaycan Respublikası Konstitusiyasında vətəndaşların şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ təsbit olunmuşdur. Həmçinin hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməsi göstərilmişdir.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır.

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə 15 gün ərzində cavab verməlidirlər. Müraciətlərə cavab verilməsi müddətlərinin və qaydasının pozulması "Vətəndaşların müraciətləri haqqında" Qanuna əsasən məsuliyyətə səbəb olur.

Həmin Qanunun 7-ci maddəsinə görə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri verilən yazılı müraciətləri mütləq qəbul etməli, qeydiyyata almalı və onlara baxılmasını təmin etməlidirlər. Bu Qanunun tələblərinə uyğun olaraq verilən müraciəti qəbul etməkdən imtina qadağandır. Vətəndaşın müraciətinə onun daxilolma tarixi və qeydiyyat nömrəsi qoyulur. Müraciət edən şəxsin tələbi ilə ona müraciətin qeydiyyat nömrəsi, tarixi və onun icraçısına dair məlumat bildirilir. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada aparılır və müraciətə baxan subyektin rəhbəri tərəfindən təmin edilir.

Vətəndaşların müraciətlərinə baxılması ilə bağlı bələdiyyələrin üzərinə qoyulmuş vəzifələr, həmçinin bələdiyyə sahəsində idarəçiliyin həyata keçirilməsi ilə bağlı qanunla müəyyən edilmiş başqa vəzifələr bələdiyyələrdə kargüzarlıq işinin aparılmasını zəruri etmişdir. Kargüzarlığın qurulması üçün Azərbaycan Respublikasında müvafiq hüquqi baza yaradılmışdır. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində bələdiyyələrdə müraciətlərə baxılmasının ümumi qaydaları müəyyənləşdirilmiş, kargüzarlığın təşkili məsələləri Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2016-cı il tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydası" ilə tənzimlənmişdir. Qaydada bələdiyyələrdə vətəndaşların müraciətləri üzrə kargüzarlığın təşkili ilə bağlı vətəndaşların, o cümlədən digər fiziki və hüquqi şəxslərin təklif, ərizə və şikayətlərinin qəbulu, qeydiyyata alınması, baxılması, cavablandırılması və arxivləşdirilməsi ilə bağlı kargüzarlığın aparılması məsələləri öz əksini tapmışdır.

Vətəndaşlar təşkilat rəhbərinin təsdiq etdiyi vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmayaraq, əvvəlcədən tərtib edilmiş qəbul siyahısına əsasən, qabaqcadan bildirilən günlərdə və saatlarda təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri tərəfindən qəbul edilirlər.

Vətəndaşların müraciəti ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməsi tələb edildikdə, təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər. Vətəndaşlar təşkilat tərəfindən vətəndaşların qəbulu üçün ayrılmış qəbul otağına müraciət etmək və ya onun rəsmi internet

saytında qeydiyyatdan keçmək yolu ilə "Vətəndaşların müraciətləri haqqında" Qanunun 11.4-cü maddəsinə uyğun olaraq qəbula yazılırlar. Hər iki qaydada qəbula yazılmış vətəndaş qəbul günü şəxsiyyət vəsiqəsini, müraciət edən vətəndaşın adından qəbula onun nümayəndəsi gəldikdə isə onun səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidir. Vətəndaşın qəbul zamanı təqdim etdiyi yazılı müraciət bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq qəbul edilir və qeydiyyata alınır. Vətəndaşın qəbul zamanı etdiyi şifahi müraciəti ilə bağlı qeydiyyat-nəzarət vərəqəsində qəbula dair qeyd aparılır. Şifahi müraciətdəki məsələnin həlli əlavə araşdırma tələb etmədikdə, vətəndaşın razılığı ilə müraciət qəbul zamanı şifahi qaydada cavablandırılır. Qəbul zamanı vətəndaşın müraciətini şifahi qaydada cavablandırmaq mümkün olmadıqda, müraciət yazılı qaydada təqdim olunur. Belə müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması bu qaydanın 4.4-cü bəndinə uyğun olaraq həyata keçirilir. Vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, müraciət edən şəxsə aidiyyəti üzrə müraciətetmə qaydası izah olunmalıdır.

Qaydada vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq işinin təşkilatın kargüzarlıq xidməti və ya xüsusi olaraq bu məqsəd üçün ayrılan şəxslər tərəfindən digər növ kargüzarlıq işlərindən ayrıca aparılması nəzərdə tutulur.

Vətəndaşların müraciət etmək hüququnun pozulması hallarının və bu halların yaranma səbəblərinin vaxtında aşkar edilməsi məqsədi ilə təşkilatın kargüzarlıq xidməti vətəndaşların müraciətlərinin təhlili və ümumiləşdirilməsi əsasında aylıq, rüblük və illik arayışlar hazırlayıb onları təşkilatın rəhbərinə (bələdiyyənin sədrinə) təqdim edir.

Vətəndaşların müraciətlərinə dair sənədlərin saxlanılma müddətləri "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla hər bir təşkilat tərəfindən ən azı 5 (beş) il olmaqla müəyyən edilir. Vətəndaşların müraciətlərinə dair sənədlərin qorunub saxlanmasına təşkilatın rəhbəri və kargüzarlıq xidməti cavabdehdirlər.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2016-cı il tarixli 951 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.3-cü maddəsinə əsasən bələdiyyə orqanlarında, bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Kargüzarlıq işi yalnız müraciətlərlə bağlı olmayıb, bütövlükdə qurumun sənədlərlə işinin bütün sahələrini əhatə edir. Vətəndaşların müraciətləri üzrə kargüzarlıq işi istisna olmaqla bələdiyyələrdə kargüzarlıq işi ayrıca normativ hüquqi aktla tənzimlənmədiyi üçün bəzi məsələlərin həllində anoloji qaydalar tətbiq oluna bilər. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair" Təlimat çox önəmlidir və bir sıra məsələlər üzrə (kargüzarlığın anlayışı, kargüzarlıq xidmətinin vəzifəsi və s.) Təlimatın müddəaları əsas götürülə bilər. Təlimatın 2-ci bəndinə əsasən kargüzarlıq - təşkilatın, öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyətidir.

Təlimatın 4-cü bəndinə əsasən kargüzarlıq xidmətinin əsas vəzifələri aşağıdakılardır:

-poçt, elektron poçt, faks, telefonoqram, feldyeger rabitəsi vasitəsilə və kargüzarlıq xidmətinə bilavasitə daxil olan sənədləri qəbul etmək, qeydə almaq, aidiyyəti üzrə bölüşdürmək və icraçılara çatdırmaq;

-sənədləri göndərmək;

-sənədlərin icra müddətinə, bu Təlimatın tələblərinə uyğun tərtibinə və arxivləşdirilməsinə nəzarət etmək;

-icra edilmiş sənədləri struktur bölmələrindən tələb etmək;

-sənədlərin surətlərini çıxarmaq, çoxaltmaq və stenoqrafiya işlərini həyata keçirmək;

-sənədləri işlərin nomenklaturu üzrə formalaşdırmaq və arxivə təhvil vermək;

-sənədləri qoruyub saxla-

maq və xidməti zərurətlə əlaqədar onlardan istifadəni təmin etmək;

-kargüzarlığın müntəzəm surətdə təkmilləşdirilməsi məqsədi ilə təşkilatın bütün fəaliyyət sahələrində kargüzarlıq işinə metodik rəhbərliyi həyata keçirmək, kargüzarlığı aparan işçilərin peşə hazırlığını artırmaq;

-tabe təşkilatlarda kargüzarlığın aparılmasına nəzarət etmək.

Bələdiyyələrə məxsus daşınmaz əmlakın mülki dövriyyəyə geniş cəlb edilməsini nəzərə alaraq hər bir bələdiyyədə daşınmaz əmlakın mülkiyyətə, icarəyə və ya istifadəyə verilməsi ilə əlaqədar müqavilələrin xüsusi kitablarda reyestrinin aparılması və müqavilələrin bələdiyyələrdə saxlanılan nüsxəsinin xüsusi qovluqlarda saxlanılması məqsədəuyğundur.

Təlimatda habelə işlərin nomenklaturunun tərtib edilməsi, qovluqların formalaşdırılması, arxivə təhvil verilməyə hazırlanması və cari arxivdən istifadə qaydaları da əks olunmuşdur. Hesab edirik ki, bələdiyyəyə məxsus arxiv sənədlərinin saxlanılması və mühafizə edilməsi də Təlimatda göstərilən qaydada həyata keçirilməlidir. Təlimata əsasən qovluqların düzgün formalaşdırılması, sənədlərin tez tapılmasının təmin edilməsi, işlərin sistemləşdirilməsi və uçotu, onların saxlanma müddətlərinin müəyyən edilməsi və gələcəkdə arxivə lazımi səviyyədə təhvil verilməsi məqsədi ilə hər il təşkilatın işlərinin ümumi nomenklatur-siyahısı tərtib edilir. İş nomenklaturunu struktur bölmələrinin təkliflərini nəzərə almaqla kargüzarlıq xidməti tərtib edir, təşkilat rəhbəri isə təsdiq edir. Növbəti ilə adlayan işlər istisna olmaqla, bir ilin bütün sənədləri qovluqlarda formalaşdırılır. Bir qovluqdakı vərəqlərin sayı 200-250-dən çox olmamalıdır. Sənədlər qovluğa bir nüsxədə tikilir.

Təlimata əsasən sənədlər Dövlət Arxivinə təhvil verilmək üçün hazırlanarkən onlar yenidən ekspertizadan keçirilməli, daimi saxlanılan sənədlərin və işlərin siyahıları, ləğv edilmək ucun ayrılan sənədlərin və işlərin aktları tərtib edilməlidir.

Təşkilatda kağız və (və ya) elektron formada olan sənədlər Azərbaycan Respublikasının "Milli arxiv fondu haqqında" Qanununda müəyyən edilmiş müvəqqəti saxlanma müddəti başa çatdıqdan sonra daimi saxlanmaq üçün Dövlət Arxivinə təhvil verilir. Arxivə təhvil verilməli olmayan və daimi saxlanılmalı olmayan sənədlər ekspertiza komissiyasının qərarı ilə və təşkilat rəhbərinin təsdiq etdiyi akt üzrə məhv edilir.

Təlimatda həmçinin elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətləri də öz əksini tapmışdır. Sənəd elektron formada qəbul edildikdə, təşkilat aşağıda göstərilən informasiya sistemini tətbiq etməlidir:

-elektron sənədin yaradılması;

-rekvizitlərin və gücləndirilmiş elektron imzanın əlavə edilməsi;

-elektron sənədin göndərilməsi;

-elektron sənədin həqiqiliyinin yoxlanılması;

-elektron sənədin alınmasının təsdiqi;

-daxil olan və ya göndərilən elektron sənədin qeydiyyatı;

-elektron sənədin yaradılması, qeydə alınması, göndərilməsi və saxlanılması zamanı kollektiv işin təmin edilməsi;

-elektron sənədin icrasına nəzarət;

-elektron sənədin axtarışı;

-elektron sənədin saxlanılması.

-elektron sənədlərin və onların arxivlərinin saxlanılması.

Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək etmək və onlara metodoloji yardım göstərmək istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 140-a yaxın bələdiyyədə kargüzarlıq işinin təşkili və sənədlərin arxivləşdirilməsi vəziyyəti cari ildə Mərkəz və regional ədliyyə idarələri tərəfindən yerində öyrənilmiş, bu sahədə mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədi ilə onlara zəruri əməli və metodik köməklik göstərilmiş, tövsiyələr verilmişdir.

Beləliklə, yerli özünüidarənin düzgün və səmərəli həyata keçirilməsi bələdiyyələrdə kargüzarlıq işinin tələb olunan səviyyədə qurulmasından çox asılıdır. Hər bir təşkilatda olduğu kimi bələdiyyələrdə də fəaliyyətin düzgün sənədləşdirilməsi, sənədlərin lazımi səviyyədə qorunub saxlanılması və arxivləşdirilməsi ümumi işin çox mühüm tərkib hissəsidir. Sənədlərin düzgün arxivləşdirilməsi vətəndaşların hüquq və qanuni mənafeləri, gələcəkdə yarana biləcək torpaq, əmlak və digər mübahisələrin obyektiv, ədalətli həlli baxımından da cox vacibdir. Ona görə də, bələdiyyələr bu sahəyə diqqət verməli, qanunvericilikdən irəli gələn tələbləri əsas tutaraq tətbiq etməlidirlər.

**Aygün Hüseynova**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzi İnzibati Nəzarət İdarəsinin məsləhətçisi**

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat şöbəsinin rəis müavini Aynur Osmanova, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Fərhad Kərimovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin şərh olunmasına dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 90.9 və 91.7-ci maddələrinin şərh edilməsini xahiş etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkməsi göstərilsə də, bu əməlin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) hansı maddəsi ilə cinayət məsuliyyəti yaratması müəyyən deyildir.

Cinayət-Prosessual Məcəlləsinin 91.4-cü maddəsinə görə, müstəntiq, prokuror və ya məhkəmə təqsirləndirilən şəxsin hüquqlarını təmin etməklə yanaşı, onun xahişi ilə müdafiəyə hazırlıq üçün kifayət qədər vaxt verməlidir.

Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxsin öz hüquqlarından istifadə və ya bundan imtina etməsi onun ziyanına şərh edilməməli və ona münasib olmayan nəticələrə gətirib çıxarmamalıdır. Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə, şübhəli və ya təqsirləndirilən şəxsin üzərinə verdiyi ifadəyə və ya izahata görə heç bir məsuliyyət qoyula bilməz.

Cinayət Məcəlləsinin "Ədalət mühakiməsi əleyhinə olan cinayətlər" adlanan 32-ci fəslinin 296 və 297-ci maddələrində "bilə-bilə yalan xəbərçilik

etmə" və "bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə"yə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Məcəllənin 296-cı maddəsindən fərqli olaraq, 297-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin subyekti şahid, zərərçəkmiş şəxs, ekspert və ya tərcüməçi kimi müəyyən edilmiş, şübhəli və ya təqsirləndirilən şəxsin isə cinayətin subyekti olması istisna edilmişdir.

Göstərilənlərə əsasən, sorğuverən hüquqtətbiqetmə təcrübəsində yaranan boşluğun aradan qaldırılması məqsədi ilə Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində nəzərdə tutulmuş şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını biləkdən çəkilməsinə görə Cinayət Məcəlləsinin hansı normasına əsasən cinayət məsuliyyətinə cəlb edilməsinə, eləcə də bunun hansı qaydada həyata keçirilməsinə aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələlərlə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir.

Konstitusiyada hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun olması, şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilməməsi, cinayətin törədilməsində təqsirləndirilən şəxsin özünün təqsirsizliyini sübuta yetirməyə borclu olmaması müddəaları təsbit edilmişdir (Konstitusiyanın 26-cı maddəsinin I hissəsi və 63-cü maddəsinin II və III hissələri).

Konstitusiyanın 127-ci maddəsinin IV, VII və VIII hissələrində təsbit edilmiş və cinayət mühakimə icraatının həyata keçirilməsinin əsasını təşkil edən çəkişmə, tərəflərin bərabərliyi və məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququnun təmin edilməsi prinsipləri tərəflərin müstəqil şəkildə və öz mülahizələrinə əsasən iş üzrə, o cümlədən cinayət məsuliyyəti ilə əlaqədar mövqelərini müəyyən etmək və bu mövqeləri zəruri dəlillərlə əsaslandırmaq imkanını nəzərdə tutur.

Bu qayda "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 13-cü maddəsində də öz əksini tapmışdır. Həmin maddəyə görə, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

Dövlətin ədalətli, qərəzsiz və səmərəli məhkəmə müdafiəsi hüququnu təmin etməsi öhdəliyi beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsiplərindən, xüsusilə də İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 8-ci maddəsindən, Konvensiyanın 6-cı maddəsindən, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 2-ci maddəsindən irəli gəlir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələlərin düzgün həlli üçün ilk növbədə, "bilə-bilə yalan xəbərçilik etmə", "bilə-bilə yalan ifadə vermə", "cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkmə" müddəalarına aydınlıq gətirilməsini vacib hesab edir.

Qanunverici, ədalət mühakiməsinin həyata keçirilməsi əsaslarını və qaydasını müəyyən edərkən işin qanuni, əsaslı və ədalətli həlli naminə cinayət prosesinin bütün mərhələlərində tələb olunan qaydalara riayət olunmasını təmin edən mexanizm nəzərdə tutmuşdur. Burada məqsəd cinayət hadisəsinə dair bütün halların müəyyən edilməsindən, onların düzgün hüquqi qiymətləndirilməsindən, cəmiyyətə və ayrı-ayrı şəxslərə dəymiş zərərin və şəxsin təqsirinin müəyyən edilməsindən ibarətdir. Buna isə aidlik, mümkünlük və etibarlılıq şərtlərinə cavab verən sübutların yoxlanılması və dəyərləndirilməsi əsasında nail olunur. Yalnız belə halda məhkəmə, təqsirləndirilən şəxsin törədilməsində ittiham olunduğu əməlin həqiqətən baş verib-verməməsini, əməlin cinayət olub-olmamasını, təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini və cinayət qanununun hansı norması ilə nəzərdə tutulmasını müəyyən edə bilər.

Məhz buna görə də düzgün

olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olan zərər çəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi, məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar kimi müəyyən edilmişdir (Cinayət-Prosessual Məcəlləsinin 461.0.1-ci maddəsi).

Cinayət Məcəlləsinin 297.1-ci maddəsində məhkəmədə və ya ibtidai istintaqda şahid, zərərçəkmiş şəxs tərəfindən yalan ifadə vermə və ya ekspert tərəfindən bilə-bilə yalan rəy vermə, habelə tərcüməçi tərəfindən bilə-bilə yanlış tərcümə etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bu maddənin dispozisiyasına görə, cinayətin subyektləri kimi şahid, zərərçəkmiş şəxs, ekspert və tərcüməçi müəyyən edilmişdir.

Göründüyü kimi, şübhəli və ya təqsirləndirilən şəxs bu cinayətin subyekti kimi nəzərdə tutulmamış və o, yalan ifadə verməyə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Konstitusiyanın 66-cı maddəsinə əsasən, heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

Cinayət-Prosessual Məcəlləsinin 90.7.10 və 91.5.10-cu maddələrinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxsin ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək hüquqları vardır.

Cinayət Məcəlləsinin 297-ci maddəsinin Qeyd hissəsinin 2-ci bəndinə əsasən, şəxs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə və qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumlarına qarşı ifadə verməyə məcbur edilərək bilə-bilə yalan ifadə verdikdə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Şəxsin özünün və ya yaxın qohumlarının əleyhinə ifadə vermək öhdəliyindən azad edilməsi, yəni, şahidlik immuniteti ilə təmin edilməsi şəxsin özünə və ya yaxınlarına qarşı şahidlik etməyə hər hansı formada məcbur edilməsinin yolverilməzliyini ifadə edir. Bu hüququn mahiyyəti ondan ibarətdir ki, şəxs, nəinki ifadə verməkdən, eyni zamanda, cinayətin törədilməsində onun təqsirini təsdiqləyən digər sübutları da təqdim etməkdən imtina edə bilər və cinayət mühakimə icraatının istənilən mərhələsində bu hüquq təmin olunmalıdır. Lakin şahidlik immunitetinə malik olan şəxsin üzərinə işin hallarına dair ifadə vermək öhdəliyinin qoyulmasının qadağan edilməsi heç də bu şəxsin öz iradəsi əsasında müvafiq mülahizələri təqdim etmək imkanını istisna etmir.

Şübhəli və ya təqsirləndirilən şəxsin öz müdafiəsi üçün bəraətverici sübutları cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş qaydalara uyğun təqdim etməsi mümkündür. Belə ki, Konstitusiyanın 26-cı maddəsinin I hissəsinin və Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələbləri baxımından şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə olunmaq məqsədilə ifadə verməkdən imtina etmək və ya digər şəxslərin hüquqlarını pozmadan, qanunla qadağan olunmayan müdafiə üsullarından istifadə etmək hüququ vardır.

Qeyd olunmalıdır ki, Konstitusiyanın 26-cı maddəsi hər kəsin hüquq və azadlıqlarının müdafiəsinin dövlət təminatını nəzərdə tutmaqla yanaşı, onların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş və qanunla qadağan olunmayan hərəkətləri müstəqil şəkildə həyata keçirmək imkanını leqallaşdırır və dəstəkləyir.

Lakin hər bir kəs öz hüquq və azadlıqlarının müdafiəsi zamanı qanunla qadağan olunmayan üsul və vasitələrdən istifadə edərkən, digər şəxslərin də hüquq və azadlıqlarını pozmamalıdır. Belə ki, Konstitusiyanın 71-ci maddəsinin II hissəsinə görə, hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Qanun şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun sərhədlərini digər şəxslərin hüquqları, həmçinin onların şərəf və ləyaqəti, eyni zamanda, ədalət

mühakiməsinin mənafeləri ilə məhdudlaşdırmışdır.

Qanunvericinin cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallarla bağlı şübhəli və ya təqsirləndirilən şəxsin verdiyi ifadə və ya izahata görə hüquqi məsuliyyəti müəyyən etməsi də müdafiə hüquqlarından sui-istifadənin qarşısının alınmasına yönəlmişdir. Konstitusiyanın 72-ci maddəsinin II hissəsinə əsasən, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hər bir şəxs hüquqlarının müdafiəsində öz mülahizəsinə görə, istənilən üsul və vasitələrdən istifadə edə bilər, lakin bu zaman o, qanunla qadağan olunmuş hərəkətlərə yol verməməlidir. Belə qadağanın qanunvericilikdə birbaşa nəzərdə tutulması vacib deyil. Bu, müvafiq hüququn həyata keçirilməsinin qanunla müəyyən olunmuş qaydası ilə də şərtləndirilə bilər.

Cinayət Məcəlləsinin 296-cı maddəsində isə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Yalan xəbərçilik, aşkar surətdə təqsirsiz şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkum edilməsi məqsədi ilə bilərəkdən yalan məlumatlar verilməsində ifadə olunur. Yalan xəbərçilik, həm cinayət barəsində məlumatdan, həm də təqsirsiz şəxsin təqsirləndirilməsindən ibarət ola bilər.

Nəzərə alınmalıdır ki, yalan xəbərçilik, təkcə konkret şəxsin və ya şəxslərin (onların soyadları, adları, əlamətləri göstərilməklə) cinayət törətməkdə yalandan ittiham olunmasında ifadə olunmur, bu əməl faktiki olaraq törədilməmiş cinayət hadisəsi barədə məlumat verilməsi ilə də həyata keçirilə bilər.

Yalan xəbərçiliyin əsas və bilavasitə obyekti cinayətlər barədə məlumatların baxılmasının və təhqiq edilməsinin müəyyən olunmuş qaydasıdır. Əlavə obyekt kimi isə barəsində yalan xəbərçilik edilmiş şəxslərin hüquqları və qanuni maraqları çıxış edir.

Obyektiv cəhətdən cinayət formal quruluşa malikdir. İctimai təhlükəli əməl həm aktiv hərəkətlərdə, yazılı formada, həm də şifahi formada xəbərçilikdə ifadə oluna bilər.

Subyektiv cəhətdən yalan xəbərçilik əməli yalnız qəsdən törədilir, yəni əməlin cinayət hesab olunması üçün verilən məlumatların yalan olması onları vermiş şəxsə əvvəlcədən məlum olmalıdır.

Xüsusilə qeyd olunmalıdır ki, şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsi haqqında məlumat verildikdə, cinayət təqibini həyata keçirən orqan irəli sürülən sübutlarla kifayətlənməməli, həm onları, həm də icraat zamanı əldə edilmiş digər sübutları cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırmalı və qiymətləndirməlidir.

Cinayət təqibi üzrə icraat zamanı sübut edilməli olan hallar Cinayət-Prosessual Məcəlləsinin 139-cu maddəsində müəyyən edilmişdir. Bunlara cinayət hadisəsinin başvermə faktı və halları; şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi; cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətləri; əməlin törədilməsində şəxsin təqsirliliyi və s. daxildir.

Cinayət təqibi üzrə toplanmış sübutlar tam, hərtərəfli və obyektiv yoxlanılmalıdır. Yoxlama zamanı cinayət təqibi üzrə toplanmış sübutlar təhlil olunur və bir-biri ilə müqayisə edilir, yeni sübutlar toplanır, əldə olunmuş sübutların mənbəyinin mötəbərliyi müəyyənləşdirilir (Cinayət-Prosessual Məcəlləsinin 144-cü maddəsi). Qeyd olunduğu kimi cinayət-prosessual qanunvericiliyin tələbinə görə, təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər. Cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin (Cinayət-Prosessual Məcəlləsinin 145.2 və 146.1-ci maddələri).

Şübhəli və ya təqsirləndirilən şəxs müdafiə hüququnu həyata keçirərkən özünə bəraət qazandırmaq və ya məsuliyyətini yüngülləşdirmək məqsədilə ona qarşı irəli sürülmüş ittihamla əlaqədar

sübutlar təqdim etməklə istintaqın və məhkəmə araşdırmasının gedişinə təsir etmək hüququna malikdir. Lakin bu zaman şübhəli və ya təqsirləndirilən şəxs cinayətin törədilməsinə aidiyyəti olmayan hər hansı bir şəxsin adını bilərəkdən çəkdiyi təqdirdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyət daşımalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, qanunverici, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində şübhədən və ya irəli sürülmüş ittihamdan müdafiə olunmaq üçün cinayətin törədilməsinə aidiyyəti olmayan şəxs haqqında bilərəkdən yalan məlumatların verilməsində ifadə olunan əməlləri istisna etmişdir və bu hal yalan xəbərçilik barəsində cinayət təqibi həyata keçirilən şəxsin özünümüdafiə vasitəsi kimi qəbul oluna bilməz.

Qeyd olunmalıdır ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) presedent hüququna əsasən, Konvensiyanın ədalətli məhkəmə araşdırılması hüququna dair 6-cı maddəsinin 3(c) yarımbəndi təqsirləndirilən şəxsə qarşı məhkəmə icraatının müdafiə hüququ adekvat şəkildə təmin edilmədən həyata keçirilməsinin qarşısının alınmasına yönəlmiş olsa da, məhdudiyyətsiz müdaxilə arqumentinin istifadəsini təmin etmir. Həmin hüquqdan istifadə edən zaman bilərəkdən cinayət mühakimə icraatında iştirak edən şahid və ya hər hansı başqa şəxsin cəzalandırılmalı olan davranışı haqqında yalan məlumat verilməsi halında təqib edilə bilməyəcəyini düşünmək cinayət törətməkdə ittiham olunan şəxslərin müdafiə hüququ anlayışını həddindən artıq şişirtmiş olardı (Brandstetter Avstriyaya qarşı iş üzrə 28 avqust 1991-ci il tarixli Qərar).

Bilə-bilə yalan xəbərçiliyin təhlükəliliyi ondan ibarətdir ki, verilən yalan məlumatın yoxlanılması və araşdırılması əsassız vaxt itkisinə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəsizliyinə gətirib çıxara və bunun nəticəsində günahsız şəxsin cinayət məsuliyyətinə cəlb edilib məhkum olunmasına səbəb ola bilər.

Qanunvericilikdə şübhəli və ya təqsirləndirilən şəxsin öz müdafiəsi çərçivəsində yalan ifadə verməsinə görə hüquqi məsuliyyət nəzərdə tutulmasa da, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrində "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəasının nəzərdə tutulması onu ifadə edir ki, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququ hədsiz və sərhədsiz olmamalı və bu hüquq həyata keçirilərkən başqalarının hüquqlarını pozan hərəkətlərə yol verilməməlidir.

Qanunvericilikdə bilə-bilə yalan xəbərçiliyə görə məsuliyyətin müəyyən edilməsi ilə dövlətin insan ləyaqətini, onun hüquq və azadlıqlarını qorumaq, cinayətdən zərər çəkmiş şəxsin hüquqlarını və dəymiş zərərə görə kompensasiyanı təmin etmək, həmçinin ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə zəmanət vermək kimi konstitusiya öhdəlikləri icra edilmiş olur.

Konstitusiya Məhkəməsinin Plenumu qanunvericiliyin tələblərinə əsaslanaraq hesab edir ki, Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin məzmununa əsasən, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin ittihamdan müdafiə olunmaq məqsədi ilə verdiyi yalan ifadəsini və cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallara dair ifadəsini bir-birindən fərqləndirməlidir. Şübhəli və ya təqsirləndirilən şəxs törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verərkən ona Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

Bundan sonra cinayət təqibini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin verdiyi məlumatı dəqiq və ətraflı yoxlamalı, zərurət olduqda müvafiq əməliyyat tapşırıqları verməli, haqqında xəbərçilik edilən şəxslə xəbər verən şübhəli və ya təqsirləndirilən şəxs arasındakı münasibətlərdə hər hansı qərəzin olub-olmamasını, onun kriminal meyilliliyini, motiv və məqsədini aydınlaşdırmalıdır. Yalan xəbərçilik əməlinin mövcudluğu tam sübut olunduqdan sonra şübhəli və ya təqsirlənsdirilən şəxs təqsirləndirildiyi maddə ilə yanaşı, yalan xəbərçilik etmə əməlinə görə də cinayət məsuliyyətinə cəlb edilə bilər.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Res-

publikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərarında vurğulanmışdır ki, Cinayət-Prosessual Məcəlləsinin 19.4.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar şübhəli və ya təqsirləndirilən şəxslərə onların hüquqlarını izah etməlidirlər.

Bu mənada Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, izah şübhəli və ya təqsirləndirilən şəxsi onun hüquqları haqqında təkcə məlumatlandırmaqdan ibarət olmamalı, həm də konkret prosessual hüquqların məzmununun açıqlanmasını, şübhəli və ya təqsirləndirilən şəxsin yol verəcəyi hərəkətin mümkün nəticələri haqqında xəbərdar olunmasını ehtiva etməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 26-cı maddəsinin I hissəsinin və Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələblərinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxs özünü müdafiə etmək məqsədilə ifadə verməmək, yaxud digər şəxslərin hüquqlarını pozmadan qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququna malikdir.

- Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünü müdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

- Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şübhəli və ya təqsirləndirilən şəxsə Cinayət Məcəlləsinin 296-cı maddəsində nəzərdə tutulmuş bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin I hissəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin tələblərinə müvafiq olaraq, şübhəli və ya təqsirləndirilən şəxs özünü müdafiə etmək məqsədilə ifadə verməmək, yaxud digər şəxslərin hüquqlarını pozmadan qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququna malikdir.

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90.9 və 91.7-ci maddələrinin "Cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin adını bilərəkdən çəkdiyi hallar istisna edilməklə" müddəası şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayətin törədilməsinə aidiyyəti olmayan şəxsin cinayətdə iştirakı barədə bilə-bilə yalan məlumatların verilməsini nəzərdə tutur. Belə hərəkət özünümüdafiənin qanuni üsulu kimi qəbul edilə bilməz və bu əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə cinayətinə görə məsuliyyət yaradır.

3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 204.3-cü maddəsinə uyğun olaraq, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şübhəli və ya təqsirləndirilən şəxsə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296-cı maddəsində nəzərdə tutulmuş bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev**
*Bakı şəhəri, 14 oktyabr 2019-cu il*